# Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

12 DEKABR 2019-cu il

№ 221 (4119)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# BAKI RUSİYADAN SONRA İRAN ÜÇÜN DƏ ERMƏNİSTANI ARXA PLANA ATDI - ERMƏNİSTANDA YENİ TƏLAŞ...

səh. 6

Ermənistanda "Madrid prinsipləri" ajiotajı... səh. 9

AŞPA komitəsi Azərbaycanda "sistemli siyasi məhbus oyunlarına" yenidən təhrik edilir... səh. 3

"EuroHome" yanğını barədə radikalların fantaziyalı arqumenti - dövlət onsuz da yardım və kompensasiya ayırır, yandırmaq nəyə lazım idi... səh. 4

Pensiyaların 13-14 faiz artımı nə deməkdir və pensiyaçılara nə verəcək... səh. 12

Tək-tək ölkələrdə olan "Yaradıcı sənaye"nin Azərbaycanda da ilk əsasları yaradılmağa başlayır... səh. 14

Broyler toyuqların fəsadları barədə daha bir qorxunc şayiə - uşaqlarda vaxtından qabaq cinsi yetkinlik başlayır səh. 15

Azərbaycan əhalisi niyə idmanla məşğuliyyətə bu qədər laqeyddir - cəmi 20 faiz, 45-65 yaşlılarda vəziyyət daha acınacaqlıdır... səh. 15



səh. 4-5

✓ Rusiyadan azərbaycanlı milyarderlərin seçkiyə yeni müdaxiləsi - Fərhad Əhmədovun «seçki yol xəritəsi»...

✓ Rusiyalı azərbaycanlı senatordan Azərbaycan deputatlarına - «cib deputatları, boz kardinalların idarə etdiyi kuklalar»...



Bəzi millət vəkilləri son proseslərdən yanlış nəticə çıxarıb - «döyüşə» qocaların əvəzinə oğullar gedir(?)... səh. 3

Müsavatın seçkiyə qatılmasında Milli Şuranı ciddi narahat edən məqamlar... səh. 7




Mərkəzi Bank kredit bazarında əsl «faiz inqilabı»na hazırlaşır səh. 10

səh. 8 Əli Həsənov siyasi yoluna dönməz bağlılığını bir daha göstərdi



səh. 5 125 dairənin az qala hamısından namizədlər irəli çıxaran müxalifət partiyaları - yetərli kadr potensialı ortaya qoya biləcəklərmi...



səh. 11 Azərbaycanda könüllülər hərəkatına dövlətin dəstəyinin başqa ölkələrin modelindən fərqləri...



səh. 12 AMEA-nın əməkdaşlarının "13-cü maaş" tələbləri xəbərlərinin əsl mənbəyi...



səh. 13 İri ticarət obyektlərinin icbari sığortası yenidən gündəmdə...



## Prezident İlham Əliyev Koreya Respublikası Statistika Komitəsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Prezident İlham Əliyev dekabrın 11-də Koreya Respublikasının Statistika Komitəsinin sədri Kanq Şin-Uokun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

## Heydər Əliyev Fondu Oqtay Gülalıyevin Türkiyədə müalicəsi ilə bağlı məlumat yaydı

**Heydər Əliyev Fondu qeyri-hökumət təşkilatı olaraq 2004-cü ildən etibarən vətəndaşlara ayrı-ayrı sahələrdə, xüsusilə də humanitar sahədə müxtəlif zəruri dəstək göstərib və bu istiqamətdə fəaliyyət bu gün də davam etməkdədir.**

Yardıma ehtiyacı olan hər bir kəsin yanında olmağı öz başlıca missiyası hesab edən Heydər Əliyev Fondu ötən müddət ərzində təkcə səhiyyə sahəsində 10 minlərlə insanın müraciətinə baxıb, müvafiq köməklik göstərib. Heydər Əliyev Fondu yardım etməyi, xüsusən ağır vəziyyətdə olan insanlara dəstək olmağı öz vətəndaş borcu kimi qəbul edib, bundan siyasi dividentlər əldə etməyi, təbliğat mənbəyinə çevirməyi deyil, əksinə müraciət edən bütün şəxslərə zəruri köməklik göstərməyi özünün əsas məqsədi kimi seçib.

"Trend"in məlumatına görə, hazırda Heydər Əliyev Fondu aldığı kəllə-beyin travması nəticəsində koma vəziyyətində olan hüquq müdafiəçisi Oqtay Gülalıyevin müalicəsinə zəruri yardım göstərməkdədir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığına əsasən, noyabrın 4-dən etibarən Oqtay Gülalıyevin müalicəsinə Fond tərəfindən müvafiq kömək göstərilir. Belə ki, Oqtay Gülalıyevin Bakıdakı müalicəsinə dəstək məqsədilə Türkiyədən mütəxəssislər cəlb edilib, daha sonra ailə üzvlərinin Oqtay Gülalıyevin müalicəsini Türkiyədə davam etdirmək istəyi nəzərə alınaraq, noyabrın 6-da o, Fondun prezidenti Mehriban Əliyevanın tapşırığı əsasında xüsusi ambulans təyyarə ilə İstanbula yola salınaraq orada Avrasiya klinikasına yerləşdirilib. Bir müddət sonra ailəsi Oqtay Gülalıyevin Amerikan Xəstəxanasına köçürülməsi ilə bağlı Fonda müraciət edib. Noyabrın 19-da İstanbulda Amerikan Xəstəxanasına yerləşdirilən Oqtay Gülalıyevin beynində hematoma təmizlənməsi və şunt əməliyyatı aparılıb. Hazırda Oqtay Gülalıyevin müalicəsi Heydər Əliyev Fondunun dəstəyi ilə Amerikan Xəstəxanasında davam edir.

Qeyd edək ki, Heydər Əliyev Fondunun daxili qaydalarına uyğun olaraq müalicə müəssisəsi hər 10 gündən bir xəstənin səhhəti ilə bağlı Fonda hesabat təqdim edir. Bu hesabatlara əsasən müalicənin dinamikasına uyğun olaraq xəstəyə Fond tərəfindən növbəti göstəriləcək kömək barədə qərar verilir.

Amerikan Xəstəxanasından dekabrın 9-da göndərilmiş növbəti 10 günün hesabatına əsasən, koma vəziyyətində olan Oqtay Gülalıyevin ağ ciyər və qanında infeksiya var və buna uyğun müalicə tətbiq olunmaqdadır. Xəstənin hazırkı vəziyyətini və həkimlərin rəyini nəzərə alan Heydər Əliyev Fondu müalicənin növbəti mərhələsində də müvafiq dəstəyin göstəriləcəyi barədə Oqtay Gülalıyevin həyat yoldaşı Firuzə Gülalıyevanı məlumatlandırıb. Bildirilib ki, Heydər Əliyev Fondu Oqtay Gülalıyevin müalicəsinə kömək göstərmək, ailəsinə bu çətin günlərdə mənəvi dəstək olmağa çalışır.

Qeyd olunanları nəzərə alaraq, Heydər Əliyev Fondu bir daha özünün humanist, hər bir zaman istənilən vətəndaşın yanında olmaq niyyətini bəyan edir, xəstənin indiki durumunda ayrı-ayrı şəxslərin müxtəlif maraqlardan çıxış edərək hər hansı siyasi spekulyasilayar etməsinə qarşı olduğunu bildirir.

## Köçəryan Paşinyanın Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyini "boş" adlandırdı

**Ermənistan hökumətinin başçısı Nikol Paşinyanın "Qarabağ münaqişəsinin nizamlanması münaqişənin bütün tərəflərini qane etməlidir" bəyanatı bu məsələdə İrəvanın öz mövqeyinin olmadığını göstərir.**

Baki-xeber.com İnterfax-a istinadən xəbər verir ki, bu barədə jurnalistlərə Konstitusiya quruluşunu devirmək ittihamı ilə həbs olunan Ermənistanın sabiq prezidenti Robert Köçəryan deyib.

"Həllin münaqişənin bütün tərəflərini qane etməli olması ilə bağlı Paşinyanın şüarı boş, mənasız bir söz, vasitəçinin primitiv formuludur. Bu, Ermənistanın fəaliyyət planına malik olmamasının birbaşa sübutudur", - deyə Köçəryan "Qraparak" qəzetinə müsahibəsində vurğulayıb.

# Prezident İlham Əliyev BP qrupunun baş icraçı direktorunu qəbul edib

**Prezident İlham Əliyev dekabrın 11-də BP qrupunun baş icraçı direktoru Robert Dadlini qəbul edib.**



Azərbaycanda biznesin inkişafına verdiyi töhfəyə görə qonağa minnətdarlıq edən dövlət başçısı deyib ki, Azərbaycanın BP ilə əməkdaşlığı strateji əhəmiyyətə malikdir: "Mən dəfələrlə ictimai qaydada bu barədə açıqlamalar vermişəm. Çox şadam və fəxr edirəm ki, bu 25 illik tərəfdaşlıq eyni məqsədi olan və bu məqsədlərə çatmaq üçün səmərəli addımlar atmış dostların tərəfdaşlığı olub. Bu çox vacibdir".

Dövlət başçısı deyib ki, 1990-cı illərin əvvəllərinin çox çətin geosiyasi vəziyyətində birlikdə tarixi layihələri həyata keçirə bildik. Bakı-Tbilisi-Ceyhan neft kəməri, "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun inkişafı, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və bu yaxınlarda tamamlanan TANAP:"Bu layihələrin hər birinin Azərbaycan üçün tarixi əhəmiyyəti var. Azərbaycanın bugünkü sürətli inkişafı bizim enerji sektorundan əldə etdiyimiz gəlirlər olmadan mümkün olmazdı…"

Azərbaycan Prezidentinə xoş sözlərə görə təşəkkür edən Robert Dadli deyib ki, Sizin uzaqgörən atanız və Siz bunun əsasını qoyarkən bir neçə ölkəni mürəkkəb regionda bir araya gətirdiniz: "Yüksək texnologiyalar neft sektoru ilə yanaşı, təbii qaz sektoruna da cəlb edildi və irəlidə hələ də daha çox kəşfiyyat işləri və layihələr var. Fikrimcə, bunlar bir neçə ölkənin sərhədlərini aşmaqla dünyanın ən mürəkkəb layihələridir".

# Mətbuat Şurasının İdarə Heyəti qanunsuz "TOPAZ" reklamları ilə bağlı şikayətə baxdı...

**Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin iclası keçirilib. Toplantının giriş sözü ilə açan MŞ sədri Əflatun Amaşov gündəlikdə duran məsələlər barədə məlumat verib.**




İlk olaraq iclasda Şuraya müraciətlərin 11 aylıq statistikasına nəzər salınıb. Bu baxımdan nəzərəçarpan tendensiyalar müzakirə olunub. Bildirilib ki, quruma daxil olan 490 müraciətdən 201-i media orqanlarının fəaliyyətindən şikayətdir. Həmin şikayətlərin 126-ı MŞ-nin Katibliyində araşdırılıb, tərəflər arasında barışıq əldə olunub. 75 şikayətə isə Şuranın Şikayətlər üzrə Komissiyasında baxılıb. Ötən müddətdə 4 cavabdeh KİV-in adı "qara siyahı"ya daxil edilib. Ə.Amaşovun bu və digər məsələlərlə bağlı məlumatları məqbul qiymətləndirilib və onların MŞ-nin 2019-cu il üçün yekun hesabatında əksini tapması zəruri sayılıb.

İclasda müzakirə edilən ikinci məsələ Gənclər və İdman Nazirliyinin Azərbaycan Mətbuat Şurasına ünvanladığı məktub olub. Məktubda bildirilib ki, ölkə daxilində və xaricində qanunsuz idman mərc oyunları həyata keçirən internet portallar mövcuddur. Həmin portalların reklamları isə ölkəmizin kütləvi informasiya vasitələrində yayımlanmaqdadır. Nazirlik reklam yayımının qarşısının alınmasının vacibliyini vurğulayıb və prosesə dəstək olmağa çağırıb. Oxşar müraciəti Şuraya 2011-ci ildən Azərbaycanda ilk və yeganə qanuni idman mərc oyunu operatoru olan "Caspiantech" QSC də edib. "TOPAZ" ticarət nişanına malik bu qurum qanunsuz mərc oyunlarının təşkilini həyata keçirən internet saytların siyahısını da təqdim edib.

Mətbuat Şurasının İdarə Heyətinin üzvləri müzakirə olunan məsələnin mediamız üçün əhəmiyyətli olduğunu vurğulayıblar. Bildiriblər ki, kütləvi informasiya vasitələrimiz reklam bazarının zəifliyindən əziyyət çəkir. İndiki durumda onlar mərc oyunu təşkil edən internet portalları reklam etməklə də müəyyən gəlir əldə edirlər. "TOPAZ"ın isə yerli KİV-də lazımi qədər reklamı getmir. Mövcud durumda ikincilərin digər idman mərc oyunu təşkil edənlərin reklamlarından imtinası maliyyə durumlarına mənfi təsir deməkdir.

İclasda həmçinin bildirilib ki, qanunsuz idman mərc oyunları təşkil edən internet saytları reklam edən bəzi yerli KİV-lər məhkəmə iddiaları ilə də üzləşməkdədirlər. Bu proseslər bəzən cavabdehlərin özlərinin iştirakı olmadan aparılır və qərarlar çıxarılır. Müzakirəyə çıxarılan məsələ məhz bu baxımdan da vacibdir.

MŞ İdarə Heyəti qərara gəlib ki, Şura adından Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, habelə "TOPAZ" ticarət nişanlı, ölkəmizdə ilk və yeganə qanuni idman mərc oyunu operatoru olan "Caspiantech" QSC-yə müraciət ünvanlansın. Müraciətdə KİV-lərə reklam verilməsinin və bu istiqamətdə onlarla əməkdaşlıq qurulmasının vacibliyi tövsiyə olunsun. Bunun hər iki tərəfin mənafeləri baxımından faydalılığı əsaslandırılsın.

# AŞPA komitəsi Azərbaycanda "sistemli siyasi məhbus oyunlarına" yenidən təhrik edilir...

**AŞPA-nın Hüquqi Məsələlər və İnsan Haqları Komitəsi hesab edir ki, Azərbaycanda guya "sistemli" siyasi məhbus problemi var. Bu səbəbdən sözügedən komitə hakimiyyəti qeydiyyata alınmış hallara yenidən baxmağa çağırır. Bu barədə komitənin Avropa Şurasının saytında yerləşdirilmiş məlumatında deyilir.**



***Azər Həsrət:** "Bu cür əsassız iddiaların ortaya atılması müəyyən siyasi məqsədlərdən irəli gəlir"*

AŞPA Komitəsi Avropa İnsan Hüquqları Məhkəməsinin gəldiyi nəticələr əsasında və AŞPA-nın təqdimatına əsasən bir sıra şəxslərin "siyasi məhbus" olduğunu müəyyən edib. Komitə AŞPA-nın məhkəmə sistemindən siyasi motivlə istifadə kimi "narahatedici nümunə"nin olduğu haqqında rəyi ilə razıdır. Bununla əlaqədar "Azərbaycan Avropa İnsan Haqları Konvensiyası öhdəliklərini yerinə yetirməsi üçün fundamental islahatlar aparmalıdır".

Bununla belə, komitə Azərbaycan hakimiyyətinin son illər penitensiar, məhkəmə, ədliyyə sistemlərində islahatlar yönündə atdığı addımları alqışlayır. Ancaq indiyədək görülən tədbirlərin Avropa İnsan Hüquqları Məhkəməsinin spesifik tələblərini yerinə yetirməkdən ötrü kifayət edəcəyinə inanmır. Komitə, həmçinin, Azərbaycan parlamentini Assambleyanın qətnaməsinin yerinə yetirilməsi üçün siyasi məhbuslar üzrə məruzəçi ilə əməkdaşlıq etməyə, Azərbaycan hökumətini isə Avropa Şurası Nazirlər Komitəsi ilə tam həcmdə əməkdaşlıq etməyə çağırıb.

Göründüyü kimi, AŞPA-nın məlum orqanı yenə də süni olaraq Azərbaycanda guya siyasi məhbus probleminin olduğunu bəyan edir. Bu azmış kimi, yeni "icad" ortaya atıblar - "sistemli" siyasi məhbus problemi. Hansı ki, Azərbaycanda siyasi məhbus məsələsi çoxdan öz həllini tapıb.

O baxımdan, AŞPA-nın sözügedən komitəsinin məlum yanaşması nə deməkdir?

Məsələyə münasibət bildirən media ekspeti Azər Həsrətin sözlərinə görə, bu cür əsassız iddiaların ortaya atılması müəyyən siyasi məqsədlərdən irəli gəlir: "Məsələ ondadır ki, bəzi mərkəzlər məqsədli şəkildə Azərbaycanla bağlı mənfi rəy yaratmaqla məşğuldurlar. Bunun üçün böyük həcmdə vəsaitlər xərcləyirlər. Xüsusən də Azərbaycandakı radikal müxalifətin də imkanlarından bunun üçün istifadə edilir. Onları bu və ya digər şəkildə şirniklədirib ölkədə süni formada siyasi məhbus məsələlərini qabardırlar. Ancaq, əslində,

*"Azərbaycanda siyasi məhbus problemi yoxdur, sadəcə olaraq "siyasi məhbus" kimi təqdim olunan insanlar var"*

Azərbaycanda siyasi məhbus problemi yoxdur. Sadəcə olaraq "siyasi məhbus" kimi təqdim olunan insanlar var. Həmin insanların da hamısı ilə bağlı konkret məhkəmə qərarları var. Sözügedən qərarlarda da göstərilib ki, bunlar hansı cinayətlərə, yaxud da əməllərə görə məhkum ediliblər. Deməyim odur ki, Azərbaycanı davamlı olaraq basqı altında saxlamaq istəyən qüvvələr, mərkəzlər var. Həmin qüvvələr və mərkəzlər bu cür məsələləri həm də AŞPA-nın tribunasına qədər daşıyırlar. Çalışırlar ki, sözügedən məsələ daim o cür nüfuzlu təşkilatın gündəmində olsun. AŞPA-nın Hüquqi Məsələlər və İnsan Haqları Komitəsinin məlum fikirləri də bunun davamıdır. Ancaq Azərbaycan dövlət olaraq öz vətəndaşlarına, xüsusən də fərqli siyasi seçimi olan vətəndaşlarına münasibətdə qanunlar çərçivəsində davranır. Sadəcə, bizi daimi olaraq basqı altında saxlamaq üçün böhtan atırlar. Parlament seçkisi ərəfəsində Azərbaycana təzyiqləri artırmaq istəyirlər".

***Vidadi ORDAHALLI***

# Bəzi millət vəkilləri son proseslərdən yanlış nəticə çıxarıb - "döyüşə" qocaların əvəzinə oğullar gedir(?)...

**Ölkədə aparılan geniş islahatların fonunda parlamentin yenilənməsi də zərurətə çevrildi. Artıq yeni parlamentin formalaşacağı ilə bağlı lazımi prosedurların həyata keçirilməsinə start verilib. Yeni parlament barədə daha çox səslənən fikirlər qanunverici orqanın əsasən gənclərdən formalaşacağı ilə bağlıdır.**



***Fərəc Quliyev:** "Birinin övladı nə qədər istedadlı olsa da, öz atasının əvvəl millət vəkili olduğu yerdən deputat seçilsə, ortaya bəzi suallar çıxacaq"*

Təbii ki, bu fikirlər də çox yaşlı olan deputatların yeni parlamentdə təmsil olunma şansını azaldır.

Ancaq bəzi məmurlar və millət vəkilləri özlərinin kökən olduqları və seçildikləri dairələrdən övladlarının namizədliyini irəli sürmək istəyirlər. Məsələn, sosial şəbəkələrdə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbəri Əhməd Əhmədzadənin oğlu Cuma Əhmədzadənin Qaxdan deputat olmaq niyyətinin olduğuna dair çoxlu sayda paylaşım edilir. 79 saylı İmişli seçki dairəsindən namizədliyi Ümid Partiyası Ali Məclisi tərəfindən irəli sürülən jurnalist Bakir Həsənbəyli isə sosial şəbəkədəki statusunda yazıb ki, uzun illərdir bu dairədən YAP-ın təmsilçisi iş adamı Əsabil Qasımov olub: "Ölkədə bir nəfər belə tapılmaz ki, ötən 9 il müddətində Əsabil Qasımovun MM-də hansısa problemlə bağlı bir çıxışını xatırlasın.

Təxminən 1 saat öncə maraqlı məlumat aldım. Əsabil Qasımov bu dəfə oğlu - Karat Holdingin icraçı direktoru Taleh Qasımovun namizədliyi ilə əlaqədar fəaliyyətə başlayıb. Belə ki, Ə.Qasımov öz yaxınları vasitəsilə müxalif düşərgənin adamlarına "nə istəyirsiniz edim, ancaq Talehin namizədliyinə mane olmayın" mesajları göndərir".

Azərbaycan qanunlarına görə, sabiq deputatların və hazırkı məmurların övladlarının seçki prosesində iştirakının qarşısını yalnız qanunla müəyyən olunmuş qadağalar ala bilər. Yeni onların məhz kiminsə övladları olduqlarına görə seçkidə iştirakı əngəllənə bilməz. Ancaq belə bir istək ataların nüfuzu və maddi imkanlarına güvənərək həyata keçirilirsə, təbii ki, bu yolverilməzdir və ölkədə aparılan islahatlara kölgə salır.

Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə ənənənin qoyulması heç də yaxşı deyil: "Biz seçkilərə bir qədər fərqli yanaşırıq. Partiya olaraq istəyirik ki, fərdlərdən daha çox düşüncəmiz hakimiyyətə gəlsin. Məsələn, Atatürk dünyasını dəyişib, amma onun düşüncəsi hakimdir. Kimin seçiləcəyini isə seçici müəyyənləşdirir. Bəzi gənclər kiminsə övladı olduğuna görə də ölkədə gedən proseslərdən kənarda qalmamalıdır. Yaş məsələsini kampaniyaya çevirmək olmaz. Ölkə başçısı da çıxışında buna iradını bildirdi. Biz partiyada yaş məsələsinə o qədər də önəm vermirik. Daha çox dünyagörüşə, bioqrafiyaya diqqət edirik. Burada yaşdan çox baş əsasdır. İdarəetməyə yeni nəslin gəlməsi yaxşıdır. Həmin işləri yaşlı nəsil də bacarırsa, onları da tam kənarda saxlamaq olmaz. Ancaq yaşı əsas gətirib, öz dairəsindən oğlunu seçdirmək də yaxşı hal deyil. Həmin adamın övladı bacarıqlıdırsa, mütləq cəmiyyətdə yer tapacaq. Belələrini axtarırlar. Biz Avronestdə iştirak edəndə bir sürücü övladı bizimlə tədbirlərə gedirdi. Hamımız onun üstündə əsirdik. Həm tərcüməçi, həm də başqa sahələrin bilicisi kimi onunla məsləhətləşirdik. Bu gün cəmiyyətdə sağlam rəqabət var. Yüksək postlara təyin edilən gənclərə baxın. Onların çoxunun valideynlərini heç cəmiyyət tanımır. Öz savadları, intellektləri hesabına həmin posta gəliblər. Birinin övladı nə qədər istedadlı olsa da, öz atasının əvvəl millət vəkili olduğu yerdən deputat seçilsə, ortaya bəzi suallar çıxacaq. Hesab edirəm ki, belə bir ənənənin qoyulması doğru deyil".

***Məhəmmədəli QƏRİBLİ***

# Rusiyalı azərbaycanlı senatordan Azərbaycan deputatlarına - "cib deputatları, boz kardinalların idarə etdiyi kuklalar"...

**Azərbaycan əsilli rusiyalı keçmiş senator Fərhad Əhmədov özünün "Facebook" səhifəsində Milli Məclisin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin olunması ilə bağlı geniş təhlilli məqalə paylaşıb.**





***Fazil Mustafa:** "Deputatlara yönəlik o cür fikirlərini qəbul etmirəm"*

***Elman Nəsirov:** "...Fərhad Əhmədovun yaşına uyğun olmayan ifadələrdir"*

Ölkənin gündəm mövzusu olduğundan, bu mövzuda hər kəs tərəfindən sosial şəbəkələrdə müzakirələrin açılması və paylaşımların edilməsi təbiidir. Lakin Fərhad Əhmədovun paylaşımı onun bu məsələyə bir qədər fərqli baxış bucağı ortaya qoyduğunu göstərir. Belə ki, rusiyalı senator həmin məqaləsində "boz kardinalların idarə etdiyi cib deputatları" kimi kəskin ifadələr işlədib: "Boz kardinallar və hakimiyyətə yaxın dairələrin orada özlərinin "cib deputatları" vardı. Ona görə də başa düşürəm ki, bu ekipajla uzağa və hündürdən uçmaq təhlükəlidir. Deputat korpusunun keyfiyyət baxımından yenilənməsi lazımdır. İndi "kuklaoynadanlardan" qurtulmuşuq...".

Maraqlıdır, bu sözlərin birbaşa ünvanı olan şəxslər - sabiq deputatların sözügedən ittihamlara münasibəti necədir?

Məsələyə münasibət bildirən millət vəkili Fazil Mustafanın sözlərinə görə, sözügedən ifadələr reallıqdan uzaq fikirlərdir: "Guya təhlil xarakterli yazı ilə çıxış edib, amma sözügedən yazı səviyyəli deyil. Orada səslənən mühakimələr və mülahizələr çox bəsiddir. Eyni zamanda, çoxsaylı natamamlıq var. Görünən odur ki, parlamentin fəaliyyəti barədə yetərincə məlumata malik deyillər. Yəni kənardan bu cür məsələlərə yanaşanda daha dolğun təhliletmə qabiliyyəti ortaya qoyulmalıdır. Ümumi sözlərlə hansısa bir məsələni bu cür qabartmaq olmaz. Təbii ki, parlamentin də fəaliyyətində nöqsanlar olub. Ancaq bu nöqsanlar başqa və daha dərin analizlə təhlil oluna bilərdi. O baxımdan deputatlara yönəlik o cür fikirlərini qəbul etmirəm. Onun yazısı daha çox hansısa bir analitik qrupun hazırladığı və bir nəfərin adından elan olunan yazıdır. Bununla yanaşı, hesab edirəm ki, Azərbaycan reallığını doğru anlamadan yazılan bir yazıdır".

Digər millət vəkili Elman Nəsirov da Fərhad Əhmədovun səsləndirdiyi fikirləri qəbul etmədiyini bildirdi: "Deputatlarla bağlı fikir söyləyərkən ifadələrin seçimində olduqca diqqətli və həssas olmaq lazımdır. Yaxşı olardı ki, F.Əhmədov bunu konkret misallar əsasında söyləsin. Ümumiyyətlə, sonuncu parlamentdə fəaliyyətindən narazı olduğu deputatlar haqqında tənqidi fikirlərini arqumentlərlə səsləndirsin. Ancaq kül halında bütün deputatları "cib deputatı", "kuklaoynadan" adlandırmaq, ən azından, F.Əhmədovun yaşına uyğun olmayan ifadələrdir. Parlamentdə kifayət qədər dövlətçilik mövqeyindən çıxış edən fəal deputat var. Ona görə də bütün deputatlara eyni prizmadan yanaşmaq düzgün deyil. F.Əhmədov biznes adamıdır. Dünyadakı biznes adamları içində yaxşıları da var, pisi də. Xalqına faydası dəyənlər də var, dəyməyənlər də. Ona görə də bu cür yanaşma F.Əhmədova başucalığı gətirmir".

Digər deputatların fikirlərini öyrənmək mümkün olmadı.

***Vidadi ORDAHALLI***

# "EuroHome" yanğını barədə radikalların fantaziyalı arqumenti - dövlət onsuz da yardım və kompensasiya ayırır, yandırmaq nəyə lazım idi...

**Xəbər verdiyimiz kimi, Bakı şəhəri, Binəqədi rayonu ərazisində yerləşən "EuroHome" tikinti materialları bazarında dəhşətli yanğın baş verib. Yanğın nəticəsində bazarın böyük hissəsi yanıb, sahibkarlara külli miqdarda ziyan dəyib. Belə yanğınların baş verməsində sahibkarların məsuliyyətsizliyi danılmazdır.**



***Rasim Quliyev:** "Bu iddianı ortaya ancaq dövləti sevməyən adamlar ata bilər"*

Ancaq əksər hallarda bu cür yanğınların törənmə səbəbləri ilə bağlı yanlış məlumatlar dövriyyəyə buraxılır.

Xüsusən də xaricdə olan bəzi internet kanalları və daxildəki radikal qüvvələr sosial şəbəkələr üzərindən əhalini çaşdıran təbliğat aparmaqla məşğul olurlar. Biz son yanğın hadisəsi zamanı da analoji davranışların şahidi olduq. Əsasən də belə bir fantaziyalı arqument səsləndirirlər ki, sözügedən bazar yolun kənarında olduğu üçün, Bakı-Sumqayıt magistral yolunun genişləndirilməsi məqsədilə yandırılıb. Təbii ki, bu, inandırıcı versiya deyil və daha çox təxribat xarakteri daşıyır. Çünki Azərbaycan hakimiyyəti indiyə qədər icra etdiyi bütün böyük layihələrdə əhalini tam razı salıb, onlara lazım olan miqdarda vəsaitləri tam ödəyib. Belə olan təqdirdə, hansısa layihənin icrası üçün bazarı yandırmağa ehtiyac varmı? Bundan əlavə, müşahidələr göstərir ki, oranı sökmədən də genişləndirmək mümkündür. Çünki ana yoldan "EuroHome" arasında ən azı 20 metr məsafə var.

"Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri Rasim Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, dövlət layihələrinin həyata keçirilməsi üçün işlər əvvəlcədən planlaşdırılır: "Orada ticarət obyektləri və əhaliyə məxsus evlərin də köçürülməsi nəzərə alınır. Onların köçürülməsi üçün büdcədən vəsait ayrılır və həmin məbləğ layihənin smetasına daxil edilir. Təcrübədə belə nümunələri çox göstərmək olar. Azərbaycan hakimiyyətinin həyata keçirdiyi bütün xırda və meqalayihələr zamanı vətəndaşların mülkiyyət hüququ birmənalı sürətdə qorunub.

*"Hətta yansa belə, həmin obyektə görə kompensasiya ödənilməlidir"*

Hətta ortaya çıxan müəyyən mübahisəli məsələlər də ədalətli şəkildə həll edilir. Vətəndaşın faktiki istifadəsində olan, hüquqi cəhətdən ona aid olmayan əmlaka da kompensasiya ödənilir. Şəxsən mən bunun dəfələrlə şahidi olmuşam. Buna görə də son yanğın hadisəsi ilə bağlı səslənən iddiaları tamamilə absurd sayıram. Gülməli məsələdir, dövlət adından kim gedib od vurub başqasının obyektini yandıra bilər? Burada konkret maraqlı olan bir qurum da yoxdur ki, əlinə odu alıb yanğın törətsin. Çünki həmin işlərin görülməsində bir neçə qurum iştirak edir. Yanğın hadisələrinin araşdırılması da həyata keçirilir. Mütəxəssislər araşdırdıqdan sonra son hadisəyə də ətraflı qiymət verəcəklər. Bu məsələlər hüquqi müstəvidə həllini tapacaq.

**Bunu dövlətin hər hansı bir layhəsinin adı ilə hallandırmaq təxribatdan başqa nəsə deyil. Bu iddianı ortaya ancaq dövləti sevməyən adamlar ata bilər. İri layihələr hər hansı ərazidən keçirsə, orada olan özəl obyektin ödənişi mütləq olmalıdır. Hətta yansa belə, həmin obyektə görə kompensasiya ödənilməlidir".**

***Məhəmmədəli QƏRİBLİ***

**Azərbaycanlı milyarder, tanınmış iş adamı Fərhad Əhmədov özünün "Facebook" səhifəsində ölkəmizdə fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkisinə dair "yol xəritəsi" ilə çıxış edib.**

# Rusiyadan azərbaycanlı milyarderlərin seçkiyə yeni müdaxiləsi - Fərhad Əhmədovun "seçki yol xəritəsi"...



Kifayət qədər böyükhəcmli yazıda F.Əhmədov əvvəlcə Azərbaycanın siyasi arenasındakı mövcud durumu təhlil etməyə çalışıb. Həm siyasi hakimiyyətin, həm də müxalifətin ünvanına tənqidi fikirlərin yer aldığı təhlildə göstərilir ki, son parlamentin tərkibində hakimiyyətdəki qruplaşmaların "cib deputatları" ilə yanaşı, təsadüfi adamlar və islahatlarla ayaqlaşa bilməyən şəxslər olub. Və buna görə də parlamentin ciddi keyfiyyət dəyişikliyinə, deməli, yeni seçkiyə ehtiyac vardı: "Boz kardinallar və hakimiyyətə yaxın dairələrin orada özlərinin "cib deputatları" vardı. Ona görə də başa düşürəm ki, bu ekipajla uzağa və hündürdən uçmaq təhlükəlidir. Deputat korpusunun keyfiyyət baxımından yenilənməsi lazımdır. İndi "kuklaoynadanlardan" qurtulmuşuq...".

Daha sonra ölkədə əsl konstruktiv müxalifətin mövcudluğunun vacibliyindən söz açan F.Əhmədov Azərbaycanda belə bir müxalifətin olmadığını iddia edir. Hakimiyyətin bir neçə deputatı parlamentə "konstruktiv müxalifət" adı altında yerləşdirməsinin isə lazımi effekt vermədiyini bildirir.

Milyarder hesab edir ki, Azərbaycanda real müxalifət yoxdur və bu daha çox neqativ nəticələr doğurur: "Formal şəkildə mövcud olan müxalifət hakim partiyanın filialıdır və bu halda alternativ xəttin hazırlanmasına çalışmır...".

Müxalifətin digər hissəsinin isə hakimiyyətlə sərt qarşıdurmada olduğunu yazan F.Əhmədov onun da ciddi perspektivlərini görmədiyini qeyd edir və təklif edir ki, yeni növbədənkənar seçkidə daha çox müstəqil namizədlərin parlamentdə təmsil olunmasına şərait yaradılsın. Milyarder hesab edir ki, məhz həmin müstəqil namizədlər gələcək əsl "konstruktiv müxalifətin" özəyini təşkil edə bilər.

Daha sonra konkret təkliflər irəli sürən iş adamı öz "yol xəritəsində" növbədənkənar seçkilə bağlı "mütləq atılmalı olan" addımları sadalayır. Bu addımların başında Mərkəzi Seçki Komissiyasının buraxılması və Seçki Məcəlləsinə kardinal dəyişikliklər edilməsi, xaricdə yaşayan və lobbiçilik fəaliyyətilə məşğul olan azərbaycanlıların seçkidə iştirakını təmin edəcək müddəaların qanuna daxil edilməsi kimi təkliflər var: "Mərkəzi Seçki Komissiyasını buraxmaq və yenidən formalaşdırmaq, bu orqanın rəhbərliyinə yeni nəslə aid idarəçi gətirmək; rayon seçki komissiyalarını yenidən formalaşdırmaq; seçki haqqında qanuna yenidən baxmaq; seçkini proporsional sistem üzrə keçirmək...".

Hətta milyarder bir qədər də uzağa gedərək hakim YAP-ı SSRİ Kommunist Partiyasına bənzədərək, bu təşkilatda da dəyişikliklərin zəruri olduğunu bildirir: "YAP-ın aparatını yenidən formalaşdırmaq, Kommunist Partiyasının kollektiv üzvlük modelindən, artıq kadr yükündən, cəmiyyətlə işdə formal-plakat üslubundan uzaqlaşmaq... Partiyanın oriyentasiyasını parlamentdə mütləq yox, adi çoxluğu təmin etməyə yönəltmək"(!?).

İndiyə qədər Azərbaycan siyasətində heç bir iddiasının olduğunu bəyan etməyən bu şəxsin birdən-birə belə yarıultimativ tərzdə olan məqalə ilə çıxış etməsi olduqca maraqlı və ciddiyə alınması vacib olan məsələdir. Əslində, bu ssenari bizə çox tanışdır. Çünki Azərbaycanda keçirilən seçkilər zamanı Rusiyadan müxtəlif yollarla ölkəyə təzyiqlərin edildiyinin şahidi oluruq. Xüsusilə də Rusiyada yaşayan varlı azərbaycanlıların belə oyunlara bir neçə dəfə cəlb edildiyinin şahidi olmuşuq. 2013-cü il prezident seçkiləri zamanı biz məhz Rusiyada yaşayan imkanlı azərbaycanlıların yer aldığı "Milyarderlər ittifaqı" kimi layihənin birdən-birə cücərdiyini gördük. Həmin hadisələrin fonunda Rusiyanın layihəsi sayılan Milli Şura meydana çıxdı. Proseslərin gedişi göstərdi ki, bütün addımların kökündə Azərbaycana şimaldan edilən təzyiq niyyətləri durub. İndiki vəziyyətlə 2013 hadisələri arasında çox bənzərlik var. Birdən-birə Rusiyada senator olan bir milyarderin Azərbaycandakı seçkilərə aid "dərin analitik" məzmunlu yazı yazmaqla bağlı özünə verdiyi əziyyət səbəbsiz ola bilməz. Əksər təhlilçi bu qənaətə gəlir ki, Rusiya belə adamların dililə Azərbaycana hansısa mesajları ötürür. Ancaq indiki məqamda Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin çox yaxşı olduğunu nəzərə alsaq, söylənənlər bir o qədər də inandırıcı görünməyə bilər. İkinci versiya bundan ibarət ola bilər ki, Fərhad Əhmədov özfəaliyyət edir. Yeni Rusiyanın adından manipulyasiya edib Azərbaycan cəmiyyətinə "mən də varam" mesajını vermək istəyir. İstənilən halda, onun yazdığı yazının məzmunu xoşniyyətli deyil. Yəqin ki, bunun arxasında hansı niyyətlərin dayandığı yaxın zamanlarda tam məlum olacaq.

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, bir çox müxalif partiya seçkilərdə iştirakını bəyan edib. Ancaq onların böyük əksəriyyətinin seçkilərdə blok şəklində deyil, təkbaşına iştirak edəcəyi məlum olur. Seçkilərə getdiyini bəyan edən bəzi müxalif partiyalar 120 dairənin əksəriyyətindən namizəd irəli sürəcəklərini bildiriblər.**

# 125 dairənin az qala hamısından namizədlər irəli çıxaran müxalifət partiyaları - yetərli kadr potensialı ortaya qoya biləcəklərmi...

***Tamilla Qulami:** "Həmin dairələr üzrə kampaniya aparmaq gücümüz olmasa, nəyə görə belə bəyanat veririk?"*

***Samir Adıgözəlli:** "Əgər onların belə elektoratı olsaydı, keçirdikləri aksiyalara çoxlu sayda tərəfdar qatılardı"*



Nəzərə alsaq ki, onlar bu seçkiyə blokla deyil, təkbaşına gedirlər, bu say bir qədər şübhəli görünür. Çünki bütün dairələrdən namizəd irəli sürmək üçün kifayət qədər vəkil, səlahiyyətli nümayəndə tələb edilir.

İqbal Ağazadənin rəhbəri olduğu Ümid Partiyası seçki dairələrinin əksəriyyətindən namizədlərini müəyyən etdiklərini bəyan edib.

Seçkidə iştirakı dəqiqləşən Müsavat Partiyasının sədri Arif Hacılı da, demək olar ki, bütün dairələr üzrə namizədləri müəyyən etdiklərini bildirib. O, ad çəkmədən namizədlərin peşələri barədə məlumat verib: "Onların sırasında siyasət və dövlət xadimləri, istiqlalçı millət vəkilləri, keçmiş parlament üzvləri, professorlar, elmlər doktorları, hüquqşünaslar, vəkillər, keçmiş siyasi və vicdan məhbusları, jurnalistlər, politoloqlar, gənc siyasi fəallar var. Bu ölkənin prezidenti olmuş namizədlərimiz də var". A.Hacılı həftə sonunadək dairələr üzrə namizədlərin tam siyahısının elan ediləcəyini bildirib.

Qeyd edək ki, A.Hacılının "bu ölkənin prezidenti olmuş namizədlərimiz də var" deyəndə kimi nəzərdə tutduğu bəlli deyil. Azərbaycanın 3 sabiq prezidenti var ki, onlardan yalnız Ayaz Mütəllibov həyatdadır.

Təkbaşına bütün dairələr üzrə namizəd irəli sürüb, onların normal kampaniyasını aparmaq müxalif partiyaların hazırkı elektoratı ilə adekvatlıq təşkil edirmi?

Ümid Partiyasının təbliğat və təşviqat məsələləri üzrə sədr müavini Tamilla Qulami "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, 9 fevral 2020-ci il növbədənkənar parlament seçkilərində Ümid Partiyası 77 dairə üzrə namizədlərini tam müəyyən edib,10 seçki dairəsi üzrə namizədlərin üst-üstə düşməsi səbəbindən dəqiqləşdirmə aparılır: "Yaxın günlərdə namizədlərin adları açıqlanacaq. Bilirsiniz ki, siyasi institutların üzərinə düşən əsas vəzifə seçkilərdə iştirakdır. Müxalifət bu seçkilərdə qəfildən yaxalanıb. Bu da müəyyən çətinliklər yaradır. Azərbaycan reallıqlarına baxsaq, etiraf etməliyik ki, belə şəraitdə mövcud elektoratla seçki kampaniyası aparmaq çətin olacaq. Biz partiya olaraq, hər zaman seçkilərdə iştirakın tərəfdarı olmuşuq. Bu həm də insanlarda seçkidə iştirakı stimullaşdırır. Bizim Azərbaycanın 70 rayonunda yerli təşkilatlarımız var. Həmin dairələr üzrə kampaniya aparmaq gücümüz olmasa, nəyə görə belə bəyanat veririk? Rayon təşkilatlarımız üzərindən də müşahidəçilərimizi təyin edəcəyik. Biz üzərimizə düşən nə varsa edirik. Ümidvarıq ki, dairə və mərkəzi seçki komissiyalarında həmin müşahidəçilərimiz qeydiyyata alınacaq və bizim üçün hər hansı bir problem yaradılmayacaq. Bəzi dairələrdən biz partiyanın təşəbbüsü ilə bitərəfləri də irəli sürməyi planlaşdırırıq. Bu da tam qanunidir. Bizim hətta ən ucqar region sayılan Naxçıvanda da güclü təşkilatımız var. Demək olar ki, partiyamızın ən aktiv fəaliyyət göstərən təşkilatıdır. Oradan da iki dairədən namizəd irəli sürəcəyik".

İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin (İSBAM) sədri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, seçki təcrübəsi olan şəxs kimi məsələyə tam obyektiv qiymət verəcək: "Dəfələrlə müstəqil namizəd kimi seçkilərdə iştirak etmişəm. Müxalifətin çox güclü olduğu zamanlar olub. Heç onda bütün dairələr üzrə partiyalar təkbaşına mübarizə aparmadı. Mən ən aktiv seçki kimi qəbul olunan 2005-ci ilə diqqəti yönəltmək istərdim. O vaxt müxalifət seçkidə blok şəklində iştirak edirdi. "Azadlıq" bloku şəklində iştirak zamanı bütün dairələri əhatə edən sanballı namizədləri irəli sürmüşdülər. Bu da ona görə mümkün oldu ki, prosesə bir neçə partiya qatılmışdı.

Tam məsuliyyəti ilə deyə bilərəm ki, hazırkı elektoratla müxalifətin heç bir partiyası 120 dairəni əhatə edən təbliğatı təkbaşına aparmaq iqtidarında deyil. Əgər onların belə elektoratı olsaydı, keçirdikləri aksiyalara çoxlu sayda tərəfdar qatılardı. Bütün müxalifət partiyaları bir araya gəlsələr belə, bunu etmək onlar üçün çətin olar".

***Məhəmmədəli QƏRİBLİ***

# Bakı Rusiyadan sonra İran üçün də Ermənistanı arxa plana atdı - Ermənistanda yeni təlaş...

**Rusiya və Ermənistan arasında münasibətlərin sürətlə pisləşdiyi bir vaxtda Bakı ilə Moskvanın dinamik inkişaf edən əlaqələri İrəvanda ciddi qıcıq yaradır. Artıq Kremldə açıq bəyan edirlər ki, Rusiyanın Qafqazda strateji tərəfdaşı məhz Azərbaycandır. Rusiya Dövlət Dumasının deputatı Dmitri Savelyev bu xüsusda bildirir:**

"Rusiya - Azərbaycan strateji tərəfdaşlığı uzunmüddətli perspektivdə tərəflərə mühüm üstünlükləri verir. Bu, uzunmüddətli yüksəliş dövrü yaşayan bərabərhüquqlu və qarşılıqlı faydalı formatdır, özü də qarşılıqlı əlaqələr iqtisadiyyat, siyasət, ölkələrimizin təhlükəsizliyinin təmin edilməsində və humanitar sahədə çoxvektorlu xarakter daşıyır. Son vaxtlar Rusiya və Azərbaycan möhkəm təməl və sahmanlı əməkdaşlıq mexanizmləri qura biliblər. Artıq Rusiya ilə Azərbaycan arasında xüsusilə etibarlı xarakter daşıyan münasibətlər bərqərar olub ki, bu da bütün sahələrdə qarşılıqlı fəaliyyətə güclü təkan və dinamika verir. Bizim birgə səylərimizlə yeni qarşılıqlı faydalı layihələr həyata keçiriləcək. Axı, Rusiya ilə Azərbaycan arasında tərəfdaşlıq çoxşaxəlidir, onun potensialı isə hələ uzun müddət tükənməyəcək".

Postsovet Məkanı Araşdırmaları Mərkəzinin direktoru Stanislav Çernyavski də bildirir ki, Cənubi Qafqazda Rusiyanın strateji müttəfiqi əslində Azərbaycandır:"Türkiyə-Rusiya-Azərbaycan və İran-Rusiya-Azərbaycan kimi əməkdaşlıq formatlarının yaradılmasında Azərbaycanın böyük rolu var. Xarici siyasət nöqteyi-nəzərindən bu gün Azərbaycan təkcə regional lider deyil, həm də qlobal səviyyədə əhəmiyyətli ölkədir". Bunlar fonunda erməni mediası yazır ki, İrəvan Moskvadan əlini üzə bilər. "İravnuk" qəzeti isə qeyd edir ki, Ermənistanın yanlış xarici siyasəti nəticəsində İrəvan təkcə Rusiyanı yox, İranı da itirir:"İran Ermənistan üçün mühüm tərəfdaş olub. Amma bu ölkəni son dövrlərdə Ermənistan yox, Azərbaycan maraqlandırır. İran-Azərbaycan işbirliyi dərinləşdikcə İran-Ermənistan münasibətlərində tənəzzül müşahidə olunur, layihələr kağız üzərində qalır. Bu isə Ermənistan üçün müsbət heç nə vəd etmir".



Həqiqətən də son dövrlərdə İranın Azərbaycanla iqtisadi əməkdaşlığın dərinləşməsinə xüsusi önəm verməsi diqqətdən yayınmır. Tərəflər birlikdə yeni layihələr həyata keçirmək məqsədilə genişmiqyaslı addımlar atır. Məsələn, İranın sənaye, ticarət və mədənlər naziri Rza Rəhmani bildirir ki, ölkəsi ilə Azərbaycanın iqtisadi əlaqələrini daha da genişləndirmək məqsədilə birgə müştərək sənaye şəhərciyinin inşası barədə razılıq əldə edilib. O qeyd edib ki, sənaye şəhərciyi Azərbaycanla sərhəd bölgədə yerləşən Ərdəbil vilayətinin Parsabad şəhərində salınacaq. Onun sözlərinə görə, şəhərciyin Ərdəbil vilayətində tikilməsi heç də təsadüfi deyil. Belə ki, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinə daxil olan və İranla Azərbaycanı birləşdirən dəmir yolu məhz bu ərazidən keçəcək. Şəhərciyin dəmir yoluna yaxın ərazidə inşa edilməsi idxal-ixrac əməliyyatlarının artması və asanlaşması üçün əlverişlidir. Gələcəkdə bu sənaye şəhərciyində istehsal ediləcək və buraya daxil olacaq mallar Azərbaycan ərazisindən keçməklə Orta Asiya və Rusiyaya göndəriləcək. Nazir nəzərə çatdırıb ki, belə müştərək layihələr hər iki ölkənin iqtisadiyyatının daha da inkişafına böyük təkan verəcək.

Hazırda ölkələrimiz sənaye, energetika, kənd təsərrüfatı, ticarət, səhiyyə, turizm, sərhəd-gömrük və digər sahələrdə uğurla əməkdaşlıq edir. Bu fonda İranın yol və şəhərsalma naziri Məhəmməd İslami də ölkəsinin Azərbaycanla əlaqələrin genişlənməsinə xüsusi önəm verdiyini, Azərbaycan-İran əməkdaşlığının inkişafı istiqamətində ardıcıl tədbirlərin həyata keçirildiyini bildirib. İranın Əlborz vilayətindəki Payam beynəlxalq hava limanının baş direktoru Nadir Sanai isə bildirir ki, əlaqələrin dərinləşməsi fonunda İranla Azərbaycan arasında yük və sərnişin daşınması üçün yeni aviareyslər açılacaq. O bildirib ki, Bakıda səfərdə olarkən Azərbaycanın müvafiq qurumlarının rəhbərləri ilə görüşlər keçirib. Qərara alınıb ki, Payam beynəlxalq hava limanından Bakıya birbaşa uçuşlar təşkil olunsun. İranın energetika naziri Rza Ərdakanian isə qeyd edir ki, Tehran qonşu ölkələrlə əlaqələrin inkişafına və elektrik enerjisi mübadiləsinin həyata keçirilməsinə diqqətlə yanaşır. Nazir bildirib ki, İranla Azərbaycan arasında, bütün sahələrdə olduğu kimi, enerji sahəsində də yaxşı əlaqələr qurulub. Onun sözlərinə görə, Azərbaycanla elektrik enerjisi mübadiləsini həyata keçirmək və əməkdaşlığı davam etdirmək üçün proqram hazırlanıb. Bu proqrama əsasən, Azərbaycan vasitəsilə həm də Rusiya ilə enerji mübadiləsi aparılacaq. Bütün bunlardan aydın görünür ki, İranla Azərbaycan arasında qarşılıqlı münasibətlərin yüksələn xətlə inkişaf etməsi iqtisadi əlaqələrin də inkişafına təkan verib. Elə bunlardan irəli gəlir ki, indi İran Azərbaycanla münasibətləri daha da sıxlaşdırır. Elə bu fonda Ermənistan İran üçün daha sürətlə arxa plana keçir. Erməni ekspert Vahe Davtyan da qeyd edir ki, Tehran də İrəvan getdikcə arxa plana atılır. Bu xüsusda o, Azərbaycanın fəal iştirak etdiyi "Şimal-Cənub" nəqliyyat dəhlizini ölkəsi üçün zərbə olan yeni transmilli layihə kimi təqdim edir. Bildirir ki, bu layihə nəticəsində Ermənistan yenə də nəqliyyat dəhlizi olma gücünü itirmiş olacaq. Onun sözlərinə görə, bu gedişlə Ermənistan nəqliyyat dəhlizi olma gücünü itirmiş olsa vəziyyət kritik həddə çata bilər: "Bu, Ermənistan üçün ciddi çağırışdır. Nəqliyyat logistik komponentinə dair məsələyə gəldikdə isə, aydındır ki, 2007-2008-ci illərdən sonra "Şimal-Cənub" nəqliyyat keçidinin əsas hissəsi İran-Ermənistan dəmir yolu xətti olaraq nəzərdən keçirilirdi.

**Bir sıra geosiyasi, daxili siyasi və digər problemlərdən irəli gələrək, bu layihə həyata keçirilmədi. Lakin bunun baş tutmamasına əsas səbəblərdən biri yenə də Azərbaycan tərəfindən İran-Azərbaycan dəmiryol xətlərinin birləşdirilməsini nəzərdə tutan layihənin icrası üzrə fəal iş aparılması olub. Bu layihə yekun olaraq "Şimal-Cənub"nəqliyyat keçidi layihəsinin əhəmiyyətli və strateji tərkib hissəsi kimi tanınır və Ermənistan nəqliyyat dəhlizi olma imkanlarından artıq tam məhrumdur".**

***Nahid SALAYEV***

# Müsavatın seçkiyə qatılmasında Milli Şuranı ciddi narahat edən məqamlar...

**Məlum olduğu kimi, 2020-ci ilin 9 fevralında keçiriləcək növbədənkənar parlament seçkiləri ilə əlaqədar siyasi qurumlar namizədlərinin siyahısını açıqlayır, aktiv şəkildə prosesə qoşulurlar. Yeni Azərbaycan Partiyasının İdarə Heyəti dekabrın 10-da seçkilərdə partiyanın iştirakı ilə bağlı qərar qəbul edib.**




İdarə Heyətinin iclasında, həmçinin, YAP-ın səlahiyyətli nümayəndələri təyin olunub.

Müxalifət partiyaları da seçkiyə qoşulmaqla bağlı qərarlarını verirlər. Artıq bir neçə müxalifət partiyası parlament seçkilərində iştirak edəcəyini bəyan edib. O cümlədən, radikal mövqedən çıxış edən Müsavat və REAL partiyaları da parlament seçkilərində iştirak edəcəklərini rəsmən açıqlayıblar. Eyni zamanda, bununla bağlı hazırlıqlara start veriblər.

Ancaq sözügedən siyasi təşkilatlardan fərqli olaraq, Milli Şura növbədənkənar seçkilərlə bağlı qəti qərarını bildirməyib. Qurumdan bu günlər verilən bəyanatda vurğulanıb ki, seçkilərin azad və ədalətli keçirilməsindən ötrü minimum şərtlər yerinə yetirilərsə, onlar da prosesə qatıla bilərlər. Bunlara seçki komissiyalarının yenidən formalaşması, qeydiyyat mərhələsində manеələrin yaradılmaması, sərbəst toplaşmaq azadlığının təmin edilməsi və başqa şərtlər daxildir. Hələlik hakimiyyətdən də bu

## *Elçin Mirzəbəyli: ”Bu, Müsavatın radikal düşərgədə bir pillə önə çıxması üçün zəmin yaradan amildir”*

şərtlərə hər hansı müsbət münasibət bildirilməyib. Rəsmilər hesab edirlər ki, hazırkı şəraitdə də azad və ədalətli seçkilər keçirilə bilər.

Burada maraqlı olan məqam ondan ibarətdir ki, Müsavatla REAL seçkiyə getməklə bağlı qərar verdikdən sonra Milli Şura təmsilçilərinin həmin siyasi təşkilatlara, onların liderlərinə yönəlik ittihamları artıb. Xüsusən də Müsavata yönəlik qaralama kampaniyası daha çox özünü göstərir. Partiyanı hakimiyyətə işləməkdə ittiham edirlər. Görünən odur ki, Milli Şura Müsavatın seçkiyə getməsindən çox narahatdır.

Maraqlıdır, Milli Şuranın sözügedən narahatlığının kökündə nə dayanır? Sözügedən qurum niyə bu qədər narahatdır?

Məsələyə münasibət bildirən politoloq Elçin Mirzəbəyli Milli Şuranın məlum narahatlığını bir sıra faktorlarla əlaqələndirdi: "Bu birinci dəfə deyil baş verir. Əvvəllər də belə halların şahidi olmuşuq. 2000-ci illərdə AXCP seçkiyə gedəndə Müsavat Partiyası onları, Müsavat seçkiyə gedəndə isə AXCP onları boykot edib. Yəni bu cür davranış onların "ənənəsinə" xas olan bir xüsusiyyətdir. Dəfələrlə bir yerdə saziş imzalayıblar, sonra ona asanlıqla xəyanət ediblər. Üzərlərinə götürdükləri öhdəliklərdən necə asanlıqla imtina etdiklərini dəfələrlə görmüşük. İndiki şəraitdə Milli Şuranın Müsavatın seçkiyə getməsini

*”Belə vəziyyət isə küncə sıxışdırılmış Əli Kərimlinin, faktiki olaraq, tamamilə proseslərdən kənarlaşdırılmasına gətirib çıxaracaq”*

belə narahatlıqla qarşılamasının bir neçə səbəbi var. Əvvəla Əli Kərimli sonuncu qanunsuz aksiyadan sonra tamamilə iflasa uğradı. Onsuz da cəmiyyətin gözündən düşmüşdü. Ancaq son aksiyada onun nə qədər cəsarətsiz və qorxaq olması aydın oldu. Ən adi situasiyada bu insan özünün xarakterinin ən zəif cizgilərini ortaya qoydu. Bu amillər, təbii ki, bundan sonra onun seçkilərdə uğur qazanacağını mümkünsüz edir. Belə olduğu halda, Müsavat və digər partiyalar seçkiyə qatılırsa, o zaman bu siyasi təşkilatlar, ilk növbədə, öz təbliğatını aparmaq imkanı əldə edəcəklər. Söhbət qanunvericiliyin verdiyi imkan və resurslardan istifadə etməkdən gedir. Bu, Müsavatın radikal düşərgədə bir pillə önə çıxması üçün zəmin yaradan amildir.

Digər tərəfdən, parlamentə düşəcəklərsə, o zaman həm də siyasi partiya kimi öz təşkilatlarını inkişaf etdirmək imkanı qazanacaqlar. Belə vəziyyət isə küncə sıxışdırılmış Əli Kərimlinin, faktiki olaraq, tamamilə proseslərdən kənarlaşdırılmasına gətirib çıxaracaq. Milli Şuranın bu qədər narahat olması məhz bununla bağlıdır".

***Vidadi ORDAHALLI***

# Arif Hacılı "siyasi mühacir"lərə satmaq məqsədilə Almaniyaya 72 ədəd "diplom" aparıb

**Ortada digər maraqlı məqamlar da var, necə deyərlər, "mühacir bizneslərini" təkmilləşdirən fırıldaqçı Müsavat Partiyasının "liderləri" yeni-yeni "ideyalarla" çıxışlar edirlər. Buna misal kimi, Müsavat başqanı, "moşennik" Arif Hacılının bu ilin yayında Almaniyaya etdiyi səfərini xatırlaya bilərik.**



"Trend"in məlumatına görə, bunu siyasi psixoloq Həmid Abdullayev Müsavat Partiyasının sədri Arif Hacılının Frankfurt səfərinin pərdəarxası məqamları barədə danışarkən deyib. Onun sözlərinə görə, A.Hacılının Almaniya səfəri ilə bağlı bir sıra sabiq müsavatçılar onun "biznes layihəsini" ifşa edən faktlarla bir-birindən ilginc məlumatlar səsləndirmişdilər:

"Məsələn, bəlli olmuşdu ki, Arif Hacılı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı tədbirlərə qatılmaq üçün, daha doğru desək, bu tarixi faktdan sui-istifadə edərək, qazanc əldə etmək məqsədilə Frankfurt şəhərinə səfər etdi. Məhz keçmiş müsavatçılar da belə fikirdə idilər ki, A.Hacılının Almaniyaya getməsində məqsəd heç də tarixi AXC-nin yubiley tədbiri olmayıb. Bəlli olub ki, Müsavat başqanı ölkədən gedərkən özü ilə Avropada saxta "siyasi mühacir" statusu almaq istəyən şəxslərə satmaq niyyətilə 72 ədəd Müsavat "Diplom"u da aparıbmış. Nəticədə siyasi partiyasının maraqlarını bir kənara ataraq, bazar maraqlarını güdən və Müsavat adından saxta diplom alverini reallaşdıran Hacılı 72 ədəd diplomun hərəsini 500 avroya sataraq ümumilikdə şəxsi büdcəsinə 36 min avro əlavə etmiş olub. Nəzərə alsaq ki, həmin diplomlar sadə karton kağızdan hazırlanıb və onların hazırlanma xərcləri ümumilikdə maksimum 100 AZN-dən artıq da deyil, bu zaman rəqəmlər arasındakı fərqləri sadə gözlə də görmək mümkündür".

Daha sonra H.Abdullayev müsavatçı mənbəyə istinadən əlavə edib ki, bu bazardan əldə edilən gəlirin bir hissəsi Razim Əmiraslanlı, Gülağa Aslanlı, Səxavət Soltanlı və Nüşabə Sadıxlı arasında bölüşdürülüb.

Xatırladaq ki, ötən ay Almaniyanın hüquq-mühafizə orqanları Azərbaycanın müxalifət partiyasının keçmiş üzvlərini saxlayıb. Cinayətkar şəbəkəyə daxil olan 7 nəfər həbs edilib. Cinayətkar dəstənin saxlanılan üzvləri barəsində yerli federal məhkəmələr tərəfindən 6 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Onlar Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 9 və 14 saylı məntəqə tipli cəzaçəkmə müəssisələrinin sabiq rəisi Elçin Əkbərov, Müsavat Partiyası Avropa Koordinasiya Mərkəzinin (Müsavat AKM) sədri, Kəlbəcər rayonunun sabiq icra başçısı İlham Həsən, Müsavat partiyasının üzvü, Müsavat AKM sədrinin müavini Mehdi Xəlilbəyli, Müsavat AKM-in üzvü Abdin Cavadov, sabiq deputat Sabir Rüstəmxanlının qardaşı, "Leqat" inteqrasiya mərkəzinin rəhbəri, sabiq polis rəisi Əlövsət Əliyev, Mehdi Xəlilbəylinin sürücüsü Rəşad Məmmədov, Müsavat Partiyasının üzvü Elşən Abdullayevdir.

**Məlum olub ki, həbs edilənlər Almaniyada "miqrant alveri" ilə məşğul olmaqda, o cümlədən 3-10 min avro arası ödəmə qarşılığında insanları qaçaq yollarla Almaniyaya aparmaqda şübhəli bilinir.**

# Əli Həsənov siyasi yoluna dönməz bağlılığını bir daha göstərdi

**Professor Əli Həsənov özünün "Facebook" səhifəsində 12 dekabr - mərhum prezident Heydər Əliyevin anım günü ilə bağlı paylaşım edib.**

Ə.Həsənov yazır:

"Dekabr ayının 12-də Ümummilli Lider Heydər Əliyevin haqq dünyasına qovuşmasının 16 ili tamam olur. Bu münasibətlə qədirbilən xalqımız xüsusi sevgi və məhəbbətlə öz müdrik liderini yad edir. Yeni Azərbaycan Partiyası ilə birlikdə Ulu Öndəri ziyarət etdim və ruhuna dualar oxudum. Uyuduğu Fəxri Xiyaban yolunda əsl insan seli müşahidə olunurdu, hərə öz münasibətini və ürək sözlərini bir cür izhar edir və başqaları ilə bölüşürdülər. Şüurlu həyatımın otuz ilini siyasi kursuna həsr etdiyim və bacardığım qədər xidmət göstərdiyim Ümummilli Liderin Azərbaycan tarixindəki yeri və rolu ilə bağlı mühüm və vacib hesab etdiyim doqquz ən əsas qənaətimi hörmətli oxucularımın və bütün ölkə vətəndaşlarının diqqətinə çatdırmaq istəyirəm.

1. Heydər Əlirza oğlu Əliyev 1923- cü il may ayının 10-da dünyaya gəlmiş, 2003-cü ilə qədər mənalı bir həyat yaşayaraq fəaliyyət göstərmiş, öz qlobal düşüncə tərzi və bəşəri fəaliyyəti, müdrik və uzaqgörən siyasəti, unikal liderlik keyfiyyəti, güclü milli iradəsi, xüsusi idarəçilik istedadı və rəhbərlik bacarığı ilə Azərbaycanda Ümummilli Lider səviyyəsinə yüksəlmiş və adını tarixə əbədi həkk etmiş görkəmli siyasi və dövlət xadimi, qüdrətli tarixi şəxsiyyət olmuşdur.

2. Heydər Əliyev öz fitri istedadını, dərin zəkasını, bilik və bacarığını daim bütün azərbaycanlılarının qəlbində yaşayan milli dövlətçilik ideyalarının gerçəkləşməsinə yönəltmiş, öz dövlətini və xalqını zamanın çətin sınaqlarından uğurla çıxarmış və dinamik inkişafını təmin etmiş BÖYÜK AZƏRBAYCANLI olmuşdur.

3. Vətənə məhəbbət, Azərbaycan xalqına və dövlətinə bağlılıq bir siyasi xadim olaraq onu bütün həyatı boyu fərqləndirmişdir. İstər sovet hakimiyyəti zamanı işlədiyi və fəaliyyət göstərdiyi bütün sahələrdə, istərsə də müstəqillik dövründə Heydər Əliyev daim öz doğma Azərbaycanına ləyaqətlə xidmət etmiş, ölkəni geridə qalmış aqrar respublikadan güclü elmi-texniki potensiala malik, dinamik inkişaf edən sənaye dövlətinə çevirmiş, onun sosial-iqtisadi və mədəni tərəqqisini təmin etmiş, milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunması, milli elitanın formalaşdırılması, sağlam və intellektual gənc nəslin yetişdirilməsi istiqamətində misilsiz nailiyyətlər qazanmışdır.

4. 1990-cı ilin əvvəllərində, SSRİ-nin süqutu ərəfəsində Azərbaycanda milli-vətəndaş qarşıdurmasının vüsət aldığı, etnik separatizmin baş qaldırdığı, torpaqlarımızın bir-birinin ardınca işğal olunduğu, ölkənin daxildən və xaricdən ciddi xaos və anarxiyaya sürükləndiyi, sosial-siyasi böhranın günü-gündən dərinləşdiyi bir vaxtda Heydər Əliyev öz həyatını təhlükə qarşısında qoyaraq Moskvadan geri qayıtmış, doğma Vətənində milli-vətəndaş birliyinin yaradılması, dövlətçiliyin xilası və qorunması, ölkənin müstəqilliyin bərpası istiqamətində əsl tarixi missiya həyata keçirmişdir. Hə qədər ağır və çətin olmasına baxmayaraq, Heydər Əliyevin 1990-1993-cü illərdəki fəaliyyəti - öz xalqının milli azadlıq və müstəqillik uğrundakı mübarizəsinə qoşulması və faktiki olaraq müstəqillik uğrunda mübarizə hərəkatına rəhbərlik etməsi dövrü Azərbaycan dövlətçiliyinin və milli tariximizin ən parlaq səhifələrini təşkil edir.

5. 1993-cü ildə Azərbaycan dövlətçiliyinin çətin sınaqlar qarşısında dayandığı, dağılma və məhvolma təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda Heydər Əliyev xalqın çağırışına səs vermiş, onun tələbi və dəstəyilə yenidən ölkə rəhbərliyinə qayıtmış və xüsisi Qurtuluş missiyası həyata küçirərək, milli dövlətçiliyin XİLASKARINA çevrilmişdir.

6. Sonrakı 10 il müddətində - 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasında Heydər Əliyevin rəhbərliyi altında milli inkişafın əsasları yaradılmış - daxili sabitlik, qanunçuluq, sosial ədalət, milli həmrəylik təmin edilmiş, Azərbaycanın daxili və xarici siyasətinin, dövlət idarəçiliyinin, yeni iqtisadi, siyasi və sosial münasibətlərin, demokratik dövlət quruculuğu və vətəndaş cəmiyyətinin əsasları formalaşdırılmış, bütün sahələr üzrə ölkənin əsaslı inkişaf strategiyası hazırlanmış və həyata keçirilmişdir. Heydər Əliyev bu mərhələdə həlledici tarixi xidmət və uğurlu fəaliyyət göstərərək həm də müstəqil Azərbaycan dövlətinin QURUCUSUNA çevrilmişdir.

7. Hazırda Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinə, yaratdığı müstəqil Azərbaycan dövlətinə və onun ideoloji sütunu hesab olunan azərbaycançılıq məfkurəsinə bəslənən münasibət "öz doğma xalqına sədaqətli xidmətin və bu yolda hər cür fədakarlığa hazır olmanın" əsl nümunəsi hesab olunur



və bu prinsip siyasətlə məşğul olan indiki və gələcək siyasi xadimlər üçün vacib qiymət meyarına və pozulmaz postulata çevrilməlidir.

8. Ulu Öndərin öz dəyərini həmişə saxlayacaq uzaqgörən siyasəti, parlaq dühası və zəngin irsi Azərbaycanın uğurlu inkişafının təməlində dayanır. Bu gün dinamik inkişaf edən, region və dünya siyasətində, əksər transmilli layihələrdə öz dəst-xətti ilə seçilən müasir Azərbaycan Respublikası Heydər Əliyevin yadigarı və şah əsəridir. Hər bir vətənsevər azərbaycanlının Ümummilli Liderin unudulmaz və əziz xatirəsi qarşısındakı müqəddəs borcu müstəqil və qüdrətli Azərbaycan dövlətini qorumaq və daha da inkişaf etdirməkdən ibarətdir.

**9. Heydər Əliyevin xilaskarlıq, quruculuq və vətənə xidmət missiyasının, liderlik keyfiyyətlərinin, milli dövlətçilik təfəkkürünün, peşəkar idarəçilik təcrübəsinin, zəngin siyasi irsinin və onun birbaşa xidmətləri sayəsində tamamlanaraq milli ideologiya səviyyəsinə qaldırılmış azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və hərtərəfli inkişaf etdirilməsi Azərbaycan elitası qarşısında dayanan bugünkü əsas vəzifələrdən biridir".**

***Baki-xeber.com***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanda "Madrid prinsipləri" ajiotajı...

**Ermənistanda Dağlıq Qarabağ münaqişəsinə yanaşmada bu gün vahid mövqenin olmaması artıq heç kimə sirr deyil. Xüsusən də indiki hakimiyyətin konfliktin çözümü ilə bağlı fəaliyyəti nə beynəlxalq ictimaiyyətdə, nə də Ermənistanın özündə birmənalı qarşılanır.**

İşğalçı ölkədə belə fikirlər səslənir ki, baş nazir Nikol Paşinyan Qarabağ konfliktinə dair ziddiyyətli açıqlamalar versə də, əslində pərdə arxasında başqa işlər görür. Ermənistan parlamentinin deputatı, Erməni Milli Konqresi Partiyası sədrinin müavini Levon Zurabyan isə hətta iddia edir ki, Nikol Paşinyan ölkənin ilk prezidenti Levon Ter-Petrosyanın yaradıcısı olduğu formatı yaxın zamanlarda bərpa etmək arzusundadır.

Onun sözlərinə görə, Nikol Paşinyanın Ter-Petrosyanın təklif etdiyi formata qayıtmaqdan başqa çıxış yolu yoxdur və bunun üçün əsaslı səbəblər var: "Danışıqlar uzun müddət davam edə bilməz, çünki danışıqlar zamanı yerində addımlamaq yox, irəliləyişə nail olmaq lazımdır. Bu gün Paşinyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı şəxsi nəzəri baxışı yoxdur və təbii ki, belə olan halda o, başqasının mövqeyi arxasınca getməlidir". Xatırladaq ki, Ter-Petrosyan hələ 1997-ci ildə münaqişə bölgəsinin demilitarizasiyasını və 1992-1994-cü illərdə işğal edilmiş yaşayış məntəqələrinin Azərbaycana qaytarılmasını nəzərdə tutan plan təklif edirdi. O, Rusiya mediasında bu xüsusda yazırdı: "Real olmaq və beynəlxalq ictimaiyyətin Dağlıq Qarabağ ətrafında mövcud vəziyyətlə barışmayacağını anlamaq lazımdır. Çünki bu vəziyyət bölgədəki əməkdaşlığa, təhlükəsizliyə və Qərbin neft maraqlarına təhdid yaradır. Kompromisə getmək lazımdır. Əks halda biz kompromisə gedilməsi barədə xahiş edəcəyik. Kompromisdən imtina edilməsi və maksimalizm (mümkün olana yox, ən maksimala nail olmaq səyi) Qarabağın süqutuna və Ermənistandakı vəziyyətin pisləşməsinə aparan ən qısa yoldur". Amma məsələyə belə yanaşma sonda onun devrilməsi ilə nəticələndi. Lakin ötən zaman Ter-Petrosyanın həm də haqlı olduğunu, məhz Qarabağ münaqişəsi üzündən Ermənistanın süqutunun sürətləndiyini üzə çıxarır. Bunu erməni diplomat Arman Melikyan da təsdiq edir. O bildirir ki, Ter-Petrosyanın yanaşmasını Bakı daha üstün formada "Madrid prinsipləri" ilə möhkəmləndirib:"Azərbaycan başa düşdüyü, bir sıra prinsipləri uyğunlaşdırdığı kimi öz mövqeyini "Madrid prinsipləri"nin ruhuna və məğzinə uyğunlaşdırıb". O qeyd edib ki, Bakının bu günlərdə ATƏT-in Nazirlər Şurası üzvlərinə təqdim etdiyi sənədin "Madrid prinsipləri" ilə birbaşa ziddiyəti yoxdur: "Azərbaycan tərəfi deyir ki, bu ərazi bütövlüyünün qorunması kontekstində baş verəcəksə və Azərbaycanın suverenliyi ilə ziddiyət təşkil etməyəcəksə, Qarabağ öz müqəddəratını təyin edə bilər, bu öz müqəddəratını təyin etmə isə tanınacaq. Bu məsələ ətrafında hüquqşünasların mübahisəsi çox olub, lakin bu, böyük dərəcədə "Madrid prinsipləri"nə hər hansı mənada uyğun olan mövqedir". Melikyan sözlərinə görə, Azərbaycan 5-7 rayonun qaytarılması deyil, hər zaman bütöv Qarabağ ərazisinin qaytarılmasından danışıb. O vurğulayıb ki, "Madrid prinsipləri" qapalı gündəm təqdim edir.

Xatırladaq ki, "Madrid prinsipləri" hələ ATƏT-in 2009-cu ilin noyabrında İspaniyanın paytaxtı Madriddə keçirilən nazirlər konfransında ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə təqdim etdikləri saziş planıdır. Bu prinsiplər Praqa prosesində bərpa edilmiş və 2006-cı ilin iyununda ictimaiyyətə açıqlanan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün baza prinsiplərinə əsasən irəli sürülmüş sülh təşəbbüsünün davamı hesab edilir. Bu, 1994-cü il atəşkəs sazişindən sonra münaqişə tərəfləri arasında sülh danışıqları nəticəsində ortaya çıxan yeganə sənəddir. Prinsiplərə "mərhələli paket" sülh təklifi daxildir. Minsk Qrupu tərəfindən Azərbaycan və Ermənistan xarici işlər nazirlərinə təqdim edilmiş yenilənmiş "Madrid prinsipləri" də əsas etibarı ilə Bakının maraqlarına cavab verir. Ümumiyyətlə, yenilənmiş "Madrid prinsipləri" aşağıdakılardır: Dağlıq Qarabağın ətraf ərazilərinin Azərbaycanın nəzarətinə qaytarılması; Dağlıq Qarabağa təhlükəsizlik və özünüidarə hüququnu təmin edən müvəqqəti statusun verilməsi; İradənin hüquqi yolla ifadə edilməsi ilə Dağlıq Qarabağın yekun hüquqi statusunun gələcəkdə müəyyən edilməsi; Bütün məcburi köçkünlərin və qaçqınların öz keçmiş yaşayış yerlərinə qayıtmaq hüququ; Sülhməramlı əməliyyatların daxil olduğu beynəlxalq təhlükəsizlik zəmanəti. Bakı müəyyən dəyişikliklərlə münaqişənin bu prinsiplər əsasında həllini mümkün sayır. Sadəcə, Ermənistan hələ də prosesin irəliyə doğru getməsinə manea yaradır. Amma Arman Melikyan qeyd edir ki, "Madrid prinsipləri" yenidən dövriyyəyə qayıdır.

Bütün bunlar bu qənaətə gəlməyə əsas verir ki, danışıqlar prosesi "Madrid prinsipləri" əsasında gedir, yeni Azərbaycanın lehinə olan istiqamətdədir. Sadəcə, indi əsas məsələ Ermənistanın danışıqlarda əldə ediləcək razılıqlara nə dərəcədə əməl edəcəyidir. Aydındır ki, İrəvan müvafiq addımlar atmayacağı təqdirdə məsələnin həlli başqa istiqamətə yönələcək. Bu isə iki cəhətdən Ermənistan üçün sərfəli sayılmır. Əvvəla, Ermənistan Azərbaycanın sərt hərbi zərbəsi ilə üzləşməli olacaq. İkinci bir tərəfdən dünya ictimaiyyətinin, o cümlədən vasitəçilərin İrəvana təzyiqləri artacaq. Çünki dünya da Qarabağ məsələsində dinc müstəvidə müəyyən irəliləyişlərin olmasını istəyir. Amma Ermənistanın buna maneə yaratması beynəlxalq ictimaiyyətin, o cümlədən Minsk Qrupu həmsədrlərinin özləri üçün də məqbul deyil. Erməni hərbi ekspert David Camalyan isə bildirir ki, Qarabağ məsələsində danışıqlar yolu ilə nəticə əldə olunmasa, Ermənistanı böyük problemlər gözləyir. Onun sözlərinə görə, Ermənistan təkcə Qarabağ üzərində nəzarəti itirməyəcək. O iddia edir ki, Qarabağda hərbi əməliyyatların başlaması Ermənistanın indiki ərazilərindən qopmaları olması ilə də nəticələnə bilər. Burada ekspert ilk növbədə Mehri dəhlizinin adını çəkir. Onun sözlərinə görə, Ankara və Bakının strateji hədəfi Mehrini geri qaytarmaqdan ibarətdir: "Rəsmi Bakı bu mövqeyindən geri çəkilməyəcək. Biz isə hazırda illüziyalar qurmaqdayıq. Ermənistan tərəfi hər cür ssenariyə hazır olmalıdır. Qeyd etmək yerinə düşərdi ki, bu gün Azərbaycan Rusiya ilə də uğurlu siyasət yürüdür. Kremlə bu gün öz böyük layihələrində Azərbaycanın iştirak etməsi vacibdir. Bakı isə öz növbəsində bunu anlayır və Qarabağ məsələsində maksimum irəliləməyə çalışır. Bütün bunlar davam edərsə, bu bizim üçün qəbuledilməz bir ssenaridir." Qeyd edək ki, ermənilərin Qafqazda özlərinə dövlət qurmaları üçün Azərbaycanın İrəvan xanlığının ərazisi və İrəvan şəhəri ermənilərə 29 may 1918-ci ildə Azərbaycan parlamentinin qərarı ilə verilib. Mehri, Qafan, Gorus, Dərələyəz və Göyçə ərazisi 1920-ci ildə Ermənistana birləşdirilib. Həmçinin, 1923-cü ildə Dağlıq Qarabağ muxtar vilayəti yaradılıb və Azərbaycan torpaqları hesabına dövlət quran ermənilərə Azərbaycan ərazisində əlavə muxtariyyət də verilib. Digər tərfdən Zəngəzurun, Mehrinin Ermənistana verilməsi ilə türk dünyası arasında birbaşa coğrafi bağlar da itib. Bu məsələyə Prezident İlham Əliyev cari ilin oktyabrında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda baş tutan Zirvə Görüşündəki çıxışında da toxunub: "Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında Zəngəzur yerləşir. Vaxtilə Zəngəzur bölgəsinin Azərbaycandan alınıb Ermənistana birləşdirilməsi böyük türk dünyasını coğrafi baxımdan parçaladı". İndi bu yanaşma fonunda Ermənistanda ehtiyat edirlər ki, yeni Qarabağ savaşı başladıqda Rusiya İrəvana hansısa formada dəstək göstərməsə, böyük türk dünyası arasında birbaşa coğrafi bağlar bərpa oluna bilər.

Düzdür, Azərbaycan Ermənistandan hansısa ərazi qoparmağa hazırlaşmır. Sadəcə, beynəlxalq hüquqla tanınmış ərazi bütövlüyünü bərpa etmək istəyir. Ermənistanın bu məsələnin sülh yolu ilə həllinə manea yaratması isə, yuxarıda səslənən fikirlərdən də aydın göründüyü kimi, düşmən ölkənin özünün böyük problemlər məngənəsində qalması deməkdir. Erməni politoloq Hayk Martirosyan da məsələnin bu tərəfinə diqqət çəkərək qeyd edir ki, Paşinyan iqtidarı Qarabağ məsələsində artıq konkret mövqe sergiləməlidir:"Əks təqdirdə Ermənistan rəhbərliyi yeni savaşın ölkəmiz üçün nə ilə nəticələnəcəyini yaxşı bilməlidir. Ermənistan yeni savaşa hazır deyil, nə ordumuz, nə də iqtsaidiyyatımız buna imkan verir. Hakimiyyət sözlərlə manevr etməyə, "Madrid prinsipləri"ndən yayınmağa cəhd etsə də, istənilən halda bu prinsipləri heç kim ləğv etməyib.

"Madrid prinsipləri" gündəlikdə qalmaqda davam edir. Ona qarşı çıxıldığı halda müharibə həmişə bizi təhdid edəcək. Azərbaycan münaqişəni hərb yolu ilə həll etməkdən heç vaxt imtina etməyib". Beləliklə, aydın görünür ki, yaranmış durumda Azərbaycanın ardıcıl şəkildə öz hərbi gücünü artırması da Ermənistanda böyük təşvişlə qarşılanır. Burada hesab olunur ki, Bakı məsələnin güc yolu ilə də həllinə ciddi hazırlıq görür. Bunun əvəzində isə İrəvanın yaritmaz daxili və xarici siyasəti Ermənistanın qarşısına daha ciddi geosiyasi, hərbi və iqtisadi problemlər çıxarmaqdadır. Yeni Qarabağ savaşının başlanması isə, sadəcə, bu problemlərin miqyasını daha da genişləndirəcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Ölkədə həyata keçirilməkdə olan islahatlar Azərbaycanın iqtisadi inkişafını getdikcə daha dinamik hala gətirir. Xüsusən də qeyri-neft sektoruna yönəlik diqqət və burada qeydə alınan yüksəliş Azərbaycana beynəlxalq iqtisadi müstəvidə belə mühüm uğurlar qazandırır.**

# Mərkəzi Bank kredit bazarında əsl "faiz inqilabı"na hazırlaşır

Digər tərəfdən, baş verənlər Azərbaycanı idxalçı ölkədən artıq mühüm ixracatçıya da çevirib. Belə ki, Dövlət Gömrük Komitəsinin statistikasına istinadən, bu ilin yanvar-oktyabr aylarında Azərbaycan xarici ölkələrlə 28,276 milyard dollar dəyərində ticarət əməliyyatı aparıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 12,1% çoxdur. Son nəticədə xarici ticarətdə 5,366 milyard dollarlıq müsbət saldo yaranıb.

İndi yaranmış vəziyyətdə gündəmə gələn məsələlərdən biri iqtisadi fəallığı daha da canlandırmaq, bu prosesdə maliyyə sektorunun iştirakını genişləndirməkdir. Bu məqsədlə, artıq yayılan məlumatlara əsasən, dekabrın 13-də Mərkəzi Bank uçot dərəcəsini növbəti dəfə endirə bilər. Bununla bağlı mətbuata danışan maliyyə bazarındakı mənbə bildirib ki, hazırki iqtisadi göstəricilər uçot dərəcəsinin parametrlərində dəyişikliyə şərait yaradır: "Artıq 10 aylıq idxal-ixrac əməliyyatlarının göstəriciləri, tədiyyə balansı ilə bağlı rəqəmlər və uçot dərəcəsinə təsir edən bir çox digər faktorların göstəriciləri məlumdur. Hesab edirəm ki, bütün bunlar uçot dərəcəsinin bir qədər də endirilməsinə şərait yaradır". Qeyd edək ki, baş bank sonuncu dəfə faiz dəhlizində dəyişikliyi oktyabrın 25-də edib. Həmin vaxt Mərkəzi Bankın İdarə Heyəti uçot dərəcəsinin 8%-dən 7,75%-ə endirilməsi haqqında qərar qəbul edib. Bundan əlavə, faiz dəhlizinin aşağı həddi 6%, yuxarı həddi isə 9,5% səviyyəsində müəyyən edilib. Xatırladaq ki, Mərkəzi Bankın rəhbərliyi faiz dəhlizinin parametrlərinə növbəti dəfə dekabrın 13-də baxacaq. Ekspertlər hesab edir ki, uçot dərəcəsinin yenidən endirilməsi barədə qərar qəbul edilsə, bu, ilk növbədə kreditlərin müəyyən qədər ucuzlaşmasına, iqtisadiyyata banklar tərəfindən daha çox vəsait yönəldilməsinə səbəb olacaq. Burada məlumat üçün qeyd edək ki, uçot dərəcəsi Mərkəzi Bankın ölkənin digər banklarını pul kütləsi ilə təmin etməsidir. Yəni burada Mərkəzi Bank kommersiya bankları və digər maliyyə təşkilatlarına kredit verir, onlar isə öz növbəsində həm adi vətəndaşları, həm də müxtəlif şirkət və təşkilatları kreditlə təmin edir. Deməli, uçot dərəcəsi aşağı düşdükcə, kredit faizləri də uculaşmalıdır.




Bundan başqa o da faktdır ki, ölkədə inflyasiya səviyyəsi də uçot dərəcəsinin endirilməsinə imkan verir. Qeyd olunduğu kimi, uçot dərəcəsi aşağı olarsa, müvafq olaraq kredit faizləri aşağı düşür və kredit əhali üçün daha əlçatan olur. Belə vəziyyət, öz növbəsində, iqtisadi fəallığı artırır. Elə bu səbəbdən ehtimal edilir ki, dekabrın 13-də Mərkəzi Bank uçot dərəcəsini növbəti dəfə endirəcək. Bundan sonra isə bank kreditlərinin ucuzlaşması mütləq şəkildə həyata keçməlidir. Amma Azərbaycan reallığında o da var ki, mərkəzi bank uçot dərəcəsini aşağı salsa da, banklar heç də kreditləri buna görə ucuzlaşdırmır. Bu səbəbdən məsələyə inzibati müdaxilə də zəruri sayılır. Ekspertlər də qeyd edir ki, əslində, kreditlərin faizlərinin aşağı düşməsi üçün bütün amillər var. Əvvəla, yuxarıda qeyd olunduğu kimi, Azərbaycanın iqtisadi inkişaf sürəti və nailiyyətlər buna imkan verir. Digər tərəfdən, problemli kreditlərin həlli ilə bağlı dövlət tərəfindən atılan addımlar banklara böyük dəstək olub. Eyni zamanda, milli valyutanın mübadilə məzənnəsi uzun müddətdir sabitdir və belə görünür, hökumət bu sabitliyi yaxın dövrdə də qorumağa çalışacaq. Rəsmi inflyasiya səviyyəsi də, yuxarıda qeyd olunduğu kimi, aşağı həddədir. Mərkəzi Bankın yumşaq pul-kredit siyasəti, yəni uçot dərəcələrinin aşağı salınması, ehtiyat normalarının minimum səviyyədə olması kimi amillər də kreditlərin aşağı faizlə verilməsini stimullaşdıran faktorlar sırasında yer alır. Bankların cəlb etdikləri resursların ucuz olması da burada mühüm rol oynayır. Amma bunlara rəğmən, kreditlərin istənilən həddə ucuzlaşması baş vermir. Hazırda Azərbaycanda kommersiya banklarının depozit portfeli ilə kredit portfeli arasında faizlər baxımından kəskin fərq var. Ekspertlər hesab edir ki, fərqin yaranmasının əsas səbəbi bankların yenə də daha çox gəlir əldə etməyə çalışmasıdır. Yəni qısa müddətə daha çox gəlir əldə etmək prinsipi banklar üçün prioritet olaraq qalır. Bu da özünü kredit strukturunda da göstərir. Qeyd edilənlərdən bir daha görünür ki, bankların mövcud kredit siyasəti və bu zaman müəyyən edilən fiazlərin, əslində heç bir iqtisadi əsası yoxdur. Bundan əvvəl banklar tərəfindən belə iddialar da səslənirdi ki, ölkə iqtisadiyyatında risqlərin yüksək olması səbəbindən faizlər yüksəkdir. Amma həyata keçirilən son islahatlar bankların bu bəhanəsini də aradan qaldırıb.

İqtisadiyyatda risqlərin aşağı olması və bunun beynəlxalq maliyyə qurumları tərəfindən də bəyan edilməsi verilən kreditlərin geri qayıtma ehtimalının yüksək olmasını təsdiqləyir. Bu səbəbdən belə vəziyyət də bankların kredit faizlərini aşağı salmasına təsir göstərməlidir. Hesab edilir ki, banklar könüllü şəkildə kreditlərin faizini aşağı salmasa, məsələyə baş bank tərəfindən mütləq şəkildə inzibati müdaxilə olmalıdır. Əks təqdirdə kredit faizlərinin aşağı salınması ilə bağlı bankların özlərinin müvafiq addımlar atacağı inandırıcı görünmür.

***Ramil QULİYEV***

# Azərbaycanda könüllülər hərəkatına dövlətin dəstəyinin başqa ölkələrin modelindən fərqləri...

***Rauf Zeyni:** "Azərbaycanda mövcud olan və öz aktivliyi ilə seçilən könüllülük hərəkatı xarici ölkələrdəki analoji hərəkatlardan geri qalmır"*



*"Bizim könüllülərin fəaliyyəti bütün beynəlxalq norma və standartlara uyğundur"*

**Azərbaycanda könüllülük hərəkatının geniş vüsət alması, tələbə-gənclərin bu sahədə xüsusilə aktivlik göstərməsi müsbət haldır. Azərbaycanda bu hərəkata ciddi dövlət dəstəyi olduğundan, günü-gündən könüllü olan gənclərin sayı artır.**

Qeyd edək ki, bir neçə gün əvvəl ölkəmizdə Beynəlxalq Könüllülər Günü münasibətilə Azərbaycan tələbə-könüllülərinin Forumu keçirilib.

Tələbələr arasında könüllülük hərəkatının inkişafına, onların ictimai həyatda fəal iştirakının stimullaşdırılmasına göstərilən dövlət dəstəyi gənclərin bu sahəyə marağını artırır. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən dövlət gənclər siyasəti böyük nəticələr verir.

Məlum olduğu kimi, Təhsil Nazirliyi tərəfindən reallaşdırılan çoxsaylı layihə içərisində "Bir" Tələbə-Könüllü Proqramının da bu sahədə mühüm yeri var. Məlum olduğu kimi, son illər ölkədə keçirilən beynəlxalq səviyyəli tədbirlərin təşkilində tələbə-könüllülərin fəaliyyəti danılmazdır.

"Bir" Tələbə-Könüllü Proqramı ölkəmizin inkişafında böyük rol oynayan tələbə-könüllülərlə işi sistemləşdirmək, müvafiq fəaliyyəti stimullaşdırmaq üçün yaradılan uzunmüddətli proqramdır və hazırda 26 ali və 18 orta ixtisas təhsili müəssisəsini əhatə edən proqram 23000-dən artıq könüllü bazasına sahibdir.

Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni bizimlə söhbətində bildirdi ki, Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra ölkəmizdə könüllülük fəaliyyəti geniş inkişaf etməyə başlayıb: "Ölkəmiz müstəqillik qazandıqdan sonra hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması istiqamətində ulu öndər tərəfindən bir sıra işlərin əsası qoyuldu, işlərə başlandı. Bu dövrdə dövlət quruculuğu ilə yanaşı, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində də çox mühüm işlər görüldü. Ölkə Prezidenti İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın dəstəyilə keçirilən beynəlxalq tədbirlərdə könüllülər fəaliyyət göstərməyə başladılar. 1999-cu ildə ölkəmizdə Milli QHT Forumu yaradıldı. O forum özü gənclərin könüllülük hərəkatına stimul verdi. Həmçinin, Heydər Əliyevin 1994-cü ildə verdiyi fərmanla Gənclər və İdman Nazirliyi yaradıldı. Həmin nazirlikdə də könüllülük hərəkatının formalaşdırılması istiqamətində işlər görülməyə başladı. Amma artıq bir neçə ildir könüllülük hərəkatı çox yüksək səviyyədə inkişaf edib və beynəlxalq standartlar səviyyəsinə gəlib çatıb. Artıq bizim gənc könüllülər bir neçə xarici dildə ölkəmizdə və xaricdə keçirilən beynəlxalq tədbirlərdə yaxından iştirak edirlər. Bilirsiniz ki, Azərbaycan könüllüləri "Avroviziya", İlk Avropa Oyunlarında, İslam Həmrəyliyi Oyunlarında, eləcə də digər beynəlxalq tədbir və forumlarda çox yüksək səviyyədə xidmət göstəriblər. Azərbaycanın gənc könüllüləri narkomaniyaya qarşı birgə beynəlxalq mübarizə ilə bağlı Bakıda keçirilən konfransda da, Qoşulmama Hərəkatına üzv dövlətlərin Bakı sammitində də çox aktiv iştirak etdilər. Bu gün Azərbaycanda tam peşəkar səviyyədə 17-20 min nəfər könüllülərimiz var ki, onlar beynəlxalq sertifikatlara layiq görülüblər və bu sertifikatlarla bütün beynəlxalq tədbirlərdə sərbəst iştirak edirlər. Hətta bizim bəzi könüllülərimiz var ki, onlar Azərbaycandan kənarda keçirilən beynəlxalq tədbirlərə də dəvətlidirlər, gedib oradakı tədbirlərdə də könüllü kimi iştirak edirlər. Bu gün Azərbaycanda mövcud olan könüllülük hərəkatı nəinki ölkəmizdə, eləcə də beynəlxalq aləmdə özünü tam olaraq doğruldub".

R.Zeyni hesab edir ki, Azərbaycan dövlətinin dəstəyilə fəaliyyət göstərən gənc könüllülərin bir çox sahədə, o cümlədən də "ASAN xidmət", DOST və digər layihələrdə yaxından iştirakı bu sahəyə böyük töhfə verib. "ASAN xidmət" Mərkəzinin bazasında yaradılan könüllülük korpusunda çox aktiv gənclər çalışırlar. "ASAN xidmət" 6 il bundan əvvəl yaradıldıqda burada da könüllülük bazasından yüksək səviyyədə istifadə edildi. Bu gün də "ASAN xidmət"in özünün çox böyük könüllülər korpusu formalaşıb ki, onlar da əhaliyə yüksək səviyyədə xidmət göstərirlər. Bu gün nazirliklərin, ali məktəblərin öz könüllüləri var. Ümumiyyətlə, ali məktəblərdə könüllülük institutu öz işini gördü və demək olar ki, könüllülük hərəkatı bütün sferalara yayıldı. Təhsil Nazirliyi "ASAN xidmət"lə bir yerdə "DOST könüllüləri" proqramını yerinə yetirir və DOST layihəsində gənc könüllülər insanlara xidmət göstərirlər".

R.Zeyni qeyd etdi ki, Azərbaycan könüllülük sahəsində 50-100 illik təcrübəsi olan ölkələrdən də bəhrələnərək özünün könüllülər institutunu formalaşdıra bilib: "Biz bu sahədə uzun illik təcrübəsi olan ölkələrin də təcrübəsini öyrənirik. Azərbaycanda mövcud olan və öz aktivliyi ilə seçilən könüllülük hərəkatı xarici ölkələrdəki analoji hərəkatlardan geri qalmır, əksinə, dövlət dəstəyilə günü-gündən daha da genişlənir.

**Bizim könüllülərin fəaliyyəti bütün beynəlxalq norma və standartlara uyğundur. Bizim könüllüləri daha çox dövlətimiz dəstəkləyir, onların fəaliyyətinin genişlənməsinə şərait yaradır" - deyən R.Zeyni qeyd etdi ki, dövlət gənclər siyasətinə dəstək verməsəydi, bu boyda könüllülər hərəkatı yarana bilməzdi.**

*İradə SARIYEVA*

# Pensiyaların 13-14 faiz artımı nə deməkdir və pensiyaçılara nə verəcək...

**Yanvarın 1-dən pensiyalar orta aylıq əməkhaqlarının artımı qədər artırılacaq. Bunu Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov deyib. Onun sözlərinə görə, bu artımın 13-14 faizə yaxın olacağı gözlənir: "Yanvarın 1-dən pensiyalar orta aylıq əməkhaqlarının artımı qədər - təxminən 13-14 faizə yaxın artırılacaq. Bu, bütün pensiyalara, o cümlədən, minimum pensiyalara şamil olunacaq".**



A.Kərimov əlavə edib ki, artımdan sonra minimal pensiyaların məbləğinin 230 manata çatacağı gözlənir: "Artıq minimum pensiyaların məbləğini təqribən 72 faiz artıraraq 200 manata çatdırmışıq. Biz gözləyirik ki, indeksləşdirilmə nəticəsində baş verəcək artımdan sonra pensiyaların minimal məbləği 230 manata yaxın olacaq. Prezident İlham Əliyevin də tapşırığı var ki, əhalinin sosial təminatı gücləndirilməli, sosial rifah yaxşılaşdırılmalıdır. Buna görə də hazırda pensiyaların minimal məbləğinin artırılması nəzərdən keçirilir"

O da məlumdur ki, təkcə son bir il ərzində pensiyaların artırılması ilə bağlı ölkə Prezidentinin bir neçə qərarı var. Prezidentin qanunvericilik təşəbbüsləri nəticəsində 2019-cu ildə Azərbaycanda minimum pensiya məbləği 72.4 faiz artırılıb.

Məsələ ondadır ki, 2018-ci ildə Azərbaycanda minimum pensiyanın məbləği 116 manat təşkil edirdi. Prezident İlham Əliyevin qərarı ilə 1 mart 2019-cu ildə minimum pensiyanın məbləği 116 manatdan 160 manata qaldırıldı. Oktyabrın 1-dən isə minimum pensiyanın məbləği 160 manatdan 200 manata qaldırıldı. Dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında cari il oktyabrın 1-dən pensiyanın minimum məbləği 25 faiz artırılıb. Ümumilikdə, 660 min nəfəri əhatə edən pensiya artımı üçün illik əlavə olaraq 216 milyon manat ayrılıb. Bununla da minimum pensiya 160 manatdan 200 manata çatdırılıb. Alıcılıq qabiliyyəti göstəricisi üzrə Azərbaycan minimum pensiya məbləğinə görə MDB məkanında birinci yerdədir.

Onu da qeyd edək ki, aprelin 1-dən 14 kateqoriyaya aid şəxslər üzrə sosial müavinətlər, 9 kateqoriyaya aid şəxslər üzrə isə Prezidentin aylıq təqaüdlərinin məbləği orta hesabla 100 faiz artırılıb. Sosial təminat sisteminin əhatə dairəsi daha da genişləndirilib, 2 yeni təqaüd növü - sağlamlıq imkanları məhdud uşaqlara və I dərəcə əlilliyi olan şəxslərə qulluq edənlərə Prezidentin aylıq təqaüdü təsis olunub. Habelə aylıq sosial müavinət alan I dərəcə əlilliyi olan şəxslər üçün Prezidentin aylıq təqaüdü pensiya alan I dərəcə əlilliyi olan şəxslərə də şamil edilib. Sayı 80 minədək olan müharibə veteranlarına aylıq təqaüdlər təsis olunub. Sosial müavinət və təqaüd artımları, təsis olunan yeni təqaüdlər 300 mini əlilliyi olan şəxslərdən ibarət 600 minədək vətəndaşın rifahını yaxşılaşdırıb. Bunlardan əlavə, məcburi köçkünlərin aylıq müavinəti 50 faiz artırılıb, 800 min vətəndaşın problemli kreditləri həll olunub, tələbələrin təqaüdlərində əhəmiyyətli artımlar edilib.

Ən nəhayət, 2020-ci ildə əmək pensiyalarının ödənişi üçün xərclərin proqnozu 2019-cu ilin rəqəmlərinə nisbətdə 16,63 faiz və ya 651,68 milyon manat çox nəzərdə tutulub. Bu barədə Azərbaycan Respublikasının 2020-ci il üzrə dövlət büdcəsinin zərfində qeyd edilib. Büdcə zərfinə əsasən, 2020-ci ildə əmək pensiyalarının ödənişi üçün ümumi məbləğ 4570,08 milyon manat planlaşdırılıb. Əmək pensiyalarının orta aylıq məbləği 2018-ci ildə 7,7 faizlik, 2019-cu ildə isə 11,8 faizlik artımla 2019-cu il üçün 250,8 manat təşkil edib. 2020-ci il üçün əmək pensiyalarının orta aylıq məbləğ 293,3 manat proqnozlaşdırılır.

Bu isə gələn il orta aylıq pensiyanın 300 manata yaxın olacağı anlamına gəlir. Müqayisə üçün qeyd edək ki, 2019-cu ildə orta aylıq əmək pensiyasının həcmi 241 manat olub. Bu o deməkdir ki, gələn il bu rəqəm 60 manatadək artacaq. Bu da pensiyaçıların sosial durumuna müsbət təsir edəcək.

*Vidadi ORDAHALLI*

# AMEA-nın əməkdaşlarının "13-cü maaş" tələbləri xəbərlərinin əsl mənbəyi...

**Azərbaycanda könüllülük hərəkatının geniş vüsət alması, tələbə-gənclərin bu sahədə xüsusilə aktivlik göstərməsi müsbət haldır. Azərbaycanda bu hərəkata ciddi dövlət dəstəyi olduğundan, günü-gündən könüllü olan gənclərin sayı artır.**



***Ağahüseyn Şükürov:** "AMEA-da, ümumiyyətlə, bu barədə heç bir məlumat yoxdur"*

***İlqar Orucov:** "Fikrimcə, AMEA rəhbərliyi bu müqayisəni apararaq akademiya əməkdaşlarının "13-cü maaş" alması ilə bağlı təklif və tələblərə baxmalıdır"*

11 min nəfər əməkdaşı olan Azərbaycan Milli Elmlər Akademiyasında köklü islahatlardan söhbət getdiyi bir vaxtda bu qurumda çalışanların müxtəlif tələbləri irəli sürdüyü bildirilir. Sosial şəbəkələrdə yayılan fikirlərə görə, AMEA əməkdaşları, xüsusən də elm sahəsində az-çox nailiyyəti olan şəxslər akademiya rəhbərliyindən "13-cü maaş" tələb edir. Yayılan məlumatlara görə, alimlər hesab edirlər ki, onlara "13-cü maaş" verilməlidir.

AMEA alimlərinin "13-cü maaş"la bağlı tələbi nə dərəcədə yerindədir? AMEA rəhbərliyi onların bu tələbini ödəməlidirmi? "13-cü maaş" kimlərə verilə bilər?

Məsələyə bildirilən rəsmi münasibətlərə keçməmiş, "13-cü maaş"ın nə olduğuna toxunmaq istəyirik. "13-cü maaş" nədir, kimlərə verilir və nə cür hesablanır?

Ekspertlər qeyd edirlər ki, "13-cü maaş" ilin sonunda işçilərə pul şəklində ödənilən həvəsləndirici mükafatdır. Məqsəd işçilərin məhsuldarlığının və effektivliyinin artırılmasıdır. "13-cü maaş" anlayışının hələ sovet vaxtlarında yarandığını deyən ekspertlər bildirirlər ki, əslində, bu cür mükafatları ilin nəticələrinə görə mükafat adlandırmaq olar. Lakin sovet vaxtlarında xalq arasında bu mükafata "13-cü maaş" deyilirdi, çünki hər ilin sonunda işçilərə orta aylıq əməkhaqqı məbləğində mükafat verilirdi.

Bunun hüquqi əsaslarına gəlincə, ekspertlər deyirlər ki, nə Azərbaycan Respublikasının Əmək Məcəlləsində, nə də başqa normativ-hüquqi aktlarda bu cür mükafatların verilməsi barədə heç bir məlumat yoxdur. Lakin, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 185-ci maddəsinə görə, əmək funksiyasının yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində, müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilərə işəgötürən tərəfindən pul və ya qiymətli əşyalar hədiyyə edilə, əlavə məzuniyyət verilə, əməkhaqqına fərdi əlavə edilə bilər.

Elm üzrə ekspertlər qeyd edirlər ki, "13-cü maaş"ı ala bilməyə layiq AMEA sistemində bir-iki alim var, həmin maaş onlara verilə bilər.

AMEA-nın ictimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri Ağahüseyn Şükürov "Bakı-Xəbər"ə bildirdi ki, AMEA rəhbərliyinə alimlər tərəfindən "13-cü maaş"la bağlı heç bir müraciət daxil olmayıb: "AMEA-da, ümumiyyətlə, bu barədə heç bir məlumat yoxdur. Quruma bununla bağlı heç bir müraciət daxil olmayıb. Hesab edirəm ki, deyilənlərin heç bir əsası yoxdur".

Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, Təhsil Nazirliyi yanında İctimai Şuranın məsul katibi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru İlqar Orucov "Bakı-Xəbər"ə bildirdi ki, artıq bu məsələni bəzi alimlər gündəmə gətiriblər. "Azərbaycanın tanınmış təhsil ekspertlərindən biri, bizim görkəmli alimimiz Etibar Əliyevin məhz "13-cü maaş"la bağlı təklifi oldu. Hesab edirəm ki, o, akademiyanın əməkdaşlarına "13-cü maaş"ın verilməsi ilə bağlı təklifi irəli sürməklə çox ciddi amilləri nəzərə alıb. Akademiya əməkdaşlarının maaşı həddən artıq azdır və bugünkü bazar qiymətləri ilə heç cür adekvat deyil. Ona görə də düşünürəm ki, AMEA əməkdaşlarına "13-cü maaş"ın verilməsi, əslində, yaxşı bir ənənə ola bilərdi və həqiqi elm adamlarının əməyinin stimullaşdırılmasına müsbət təsir göstərərdi. Əslində, bu onların gələcək fəaliyyətinə ciddi təkan olacaq. Nəzərə alsaq ki, AMEA-nın digər əməkdaşları ilə akademiyanın həqiqi və müxbir üzvlərinin rütbə maaşlarında xeyli fərq var, onda fəlsəfə, elmlər doktorlarının da, şöbə müdirlərinin, kiçik və böyük elmi işçilərin, laborantların da əlavə vəsaitlə təmin olunmasına ehtiyac var. Onların arasında bu qədər əməkhaqqı fərqinin olması ədalətsizlikdir. Fikrimcə, AMEA rəhbərliyi bu müqayisəni apararaq akademiya əməkdaşlarının "13-cü maaş" alması ilə bağlı təklif və tələblərə baxmalıdır.

Tutalım, kimsə AMEA-nın müxbir, yaxud həqiqi üzvü seçilibsə, digəri bu istiqamətdə seçilməyibsə, onunla müxbir üzvlərinin və həqiqi üzvlərin maaşları arasındakı kəskin fərq absurddur. Təsəvvür edin ki, kiçik elmi işçi 350, böyük elmi işçi 450 manat maaş alır, amma müxbir üzvünün maaşı 1500-dən, akademikin rütbə maaşı isə 2 min manatdan artıqdır. Bu da kifayət qədər ciddi fərq yaradır. Halbuki, AMEA-da bütün işləri görən, tapşırıqları icra edən akademiklər, müxbir üzvləri deyil, onların tabeliyində işləyən kiçik, böyük elmi işçilərdir.

Ona görə də hesab edirəm ki, Etibar Əliyevin təklifi ilə AMEA əməkdaşlarına "13-cü maaş"ın verilməsi çox faydalı olar" - deyə İ.Orucov bildirdi.

*İradə SARIYEVA*

# İri ticarət obyektlərinin icbari sığortası yenidən gündəmdə...

***Xəyal Məmmədxanlı:** ”Həm hüquqi şəxslər, həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, vətəndaşların mənzilləri, tikililəri, obyektləri sığortaya cəlb olunmalıdır”*

**Dekabrın 10-da Bakı şəhəri, Binəqədi rayonu ərazisində yerləşən "EuroHome" tikinti materialları bazarında yanğın hadisəsi baş verib. Yanğın nəticəsində bir çox sahibkar zərər çəkib. Belə ki, satdıqları məhsulların yanması ilə onlara ciddi şəkildə maddi ziyan dəyib. Digər yanğınlardan da göründüyü kimi, bu dəfə də sahibkarlar sığorta məsələsinə laqeyd yanaşıblar.**

Artıq neçənci yanğın hadisəsidir ki, əmlakı yanan sahibkarlar maddi və mənəvi ziyanla üzüzə qalırlar. Bunun da səbəbi onların dükanlarını və həmin obyektdə olan məhsulları sığorta etdirməməsidir. Belə bir fikir var ki, sahibkarlar bu sığorta pulunu ödəməmək üçün dükanı sığorta etdirməkdən yayınırlar. Bədbəxt hadisə baş verən zaman isə köməksiz vəziyyətdə qalırlar. Bu səbəbdən də iri ticarət mərkəzlərinin, obyektlərinin məcburi şəkildə sığortalanması təklif olunur. Ekspertlərin fikrincə, dükanlar icbari şəkildə sığorta olunarsa, sahibkarlar hər hansı bir zərərlə üzləşsə belə, çətin vəziyyətdə qalmayacaqlar. Çünki onlara dəymiş zərər sığorta şirkəti tərəfindən ödəniləcək.

Məsələ ilə bağlı fikir bildirən sığorta eksperti Xəyal Məmmədxanlı təəssüf hissilə bildirdi ki, ildə bir neçə dəfə baş verən belə hadisələrdən sonra sığorta məsələsi aktuallaşır. Yanğın söndürüldükdən sonra sanki bu söhbətlər də sönür. Amma nəzərə alınmalıdır ki, 2011-ci ildə Azərbaycanda icbari sığorta ilə bağlı qanun qəbul olunub. Bu qanuna görə, həm hüquqi şəxslər, həm də sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, vətəndaşların mənzilləri, tikililəri, obyektləri sığortaya cəlb olunmalıdır Azərbaycanda tək ki, daşınmaz əmlakın sığortası məcburidir, istər hüquqi, istərsə də fiziki şəxslər üçün fərqi yoxdur. Amma yanğın daşınmaz əmlakın özünü əhatə edir: binanın konstruksiyaları, daşıyıcı divarları, qapı-pəncərələri və onun içərisindəki sair əmlak, yəni daşınmaz mal-materiallar icbari sığortanın predmeti deyil. Yəni onlar icbari sığorta ilə sığortalanmırlar: "Buna görə də vətəndaşların, mağaza işlədən sahibkarların özləri könüllü qaydada sığortalaya bilərlər. Sözügedən yerdə daşınmaz əmlakın sığortasının olub-olmaması ilə bağlı məlumatım yoxdur. Əgər sığorta olubsa da, ümid edirəm ki, həmin əmlak tam real bazar dəyərinə sığortalanıb. Bizim araşdırmalarımız və müşahidələrimiz onu göstərir ki, Azərbaycanda hüquqi şəxslərə və yaxud sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərə məxsus olan obyektlər, mağazalar öz real bazar dəyərlərindən qat-qat aşağı qiymətə sığortalanırlar. Tutaq ki, bunun qiyməti 20 milyon manatdırsa, bunun üçün vətəndaş tutaq ki, 40 min manat sığorta haqqı ödəməlidirsə, sığorta şirkətinə deyir ki, mənim bunun üçün 40 min ödəməyə imkanım yoxdur, mən bunun üçün 4 min manat ödəyəcəm, sən də buna görə mənə sığorta et. Bununla da, təbii ki, işə tərsinə yanaşırlar, 20 milyonluq obyekt də 4 min manat müqabilində 2 milyon manata sığortalanır. Dolayısı ilə sabah hər hansı bir hadisə baş verəndə iş adamı və yaxud sahibkar sığortadan çox güclü ödəniş ala bilmir. Gələk işin ikinci tərəfinə, ən yaxşı halda düşünürəm ki, "EuroHome"un heç olmasa özünün daşınmaz əmlakının sığortası var. Əgər bu sığorta varsa, müqaviləyə baxmaq lazımdır və sığorta məbləği nədirsə, həmin o sığorta məbləği hüdudunda ödəniş həyata keçirilməlidir. Oradakı sahibkarların, mağaza sahiblərinin, ticarətçilərin əmlakından söhbət gedirsə, bunların sığortalanması mövcud şəraitdə qeyri-mümkün görünür. Düzdür, tam rəyim bu deyil, ola bilsin ki, orada hər şey qanuni və rəsmi sənədlərlə işləyir. Amma bundan əvvəl də müxtəlif ticarət mərkəzləri və bazarlarda baş verən yanğınların araşdırılması icarədarlara məxsus olan mal-material, əmlak, əmtəə, hər nə varsa, onların heç birinin rəsmi qeydiyyatı və rəsmi hesabatının olmadığı üzə çıxdı".

Həmsöhbətimiz onu da vurğuladı ki, əksər hallarda mədaxillər kassaya vurulmur və yaxud giriş-çıxış qaimələri olmur. Bu da sığorta üçün çox ciddi problemlər yaradır. Çünki bunun sığortalanması üçün sığorta şirkəti bununla bağlı onlardan qeydləri istəyəcək: "Yəni bu da söz ilə olunan bir şey deyil. Sahibkar hansı dəyərdə və nə qədər mal gətirməsi, Azərbaycanda müəyyən qiymətə ona başa gəlməsi ilə bağlı sənədlər ortaya qoymalıdır. Sahibkarların əksəriyyəti nə "Sədərək"də, nə "Bina"də belə rəsmi sənədlər təqdim edə bilmirlər. Təqdim edə bilmədikləri üçün də sığorta şirkətindən sığortalanmağı istəsələr də, həmin o əmlakı, mal-materialları sığortalıya bilmirlər. Söhbət daşınar əmlakdan gedir. Amma binanın özünün texniki sənədi, çıxarışı varsa, onun üçün heç bir problem və maneə yoxdur. Amma, dediyim kimi, o yalnız binanın özünə şamil edilir. Onun içərisindəki əmlaka, mal-materiala şamil edilmir.

Onu da qeyd edim ki, oranın sığortası olmalı halda yoxdursa, olmayıbsa, təbii ki, buna görə də ilk məsuliyyəti sahibkar daşıyır. İnzibati Xətalar Məcəlləsində sığortanın bağlanmamasına görə həm hüquqi, həm də fiziki şəxsi cərimə gözləyir. İkincisi, əgər Fövqəladə Hallar Nazirliyi onun sığorta olunmadığını bilə-bilə onun sığortalanmasını tələb etməyibsə, təbii ki, Fövqəladə Hallar Nazirliyi də buna görə məsuliyyət daşımalıdır və daşıyır. Amma, hər bir halda, ilk növbədə həm özü, həm də icarədarlar qarşısında sahibkar məsuliyyət daşımalıdır".



*”Bu istiqamətdə əsaslı addımlar atılmasına ehtiyac var”*

Ekspert qeyd etdi ki, "Diqlas" və bu kimi digər hadisələrdə sahibkarlara dövlət büdcəsi, yaxud da hansısa fond tərəfindən kompensasiya ödənilməməlidir: "Bizim əldə etdiyimiz məlumatlara əsasən, əksər hallarda bu şəxslərdən sığorta adı ilə də pul alınır. Lakin bu hansı sığorta puludur, təbii ki, bunu da bilmirik. Düşünürəm ki, artıq bu istiqamətdə əsaslı addımlar atılmalıdır ki, cari ilin martında "Diqlas" ticarət mərkəzində olan yanğın təkrarlanmasın. Əks halda, yenə də kompensasiya, yardım umacaqlar, deyəcəklər ki, mallarımız yanıb, kömək etsinlər. Mən bunun əleyhinəyəm. Çünki hər bir belə hadisədə Prezident fondundan, yaxud da dövlət büdcəsindən vəsait ayrılsa, bu şəxsləri bir ətalət bürüyəcək və düşünəcəklər ki, bənzər hadisə onların da başına gəlsə, kompensasiya ödəniləcək. Belədə onlar əmlaklarına və özlərinə görə məsuliyyəti dərk etməyəcəklər".

***Günel CƏLİLOVA***

# Tək-tək ölkələrdə olan "Yaradıcı sənaye"nin Azərbaycanda da ilk əsasları yaradılmağa başlayır...

**Ölkəmizdə qeyri-neft sektorunun inkişafı bir sıra yeni dəst-xəttin, fəaliyyət və yaradıcılıq sahələrinin meydana çıxmasına şərait yaradıb. Müasir dövr sənaye məhsullarının müxtəlif biçimdə istehsalı və tətbiqi, onlara yaradıcı yanaşmanın sərgilənməsi kimi məsələləri meydana çıxarır.**

Son on ildə beynəlxalq ictimaiyyətdə məşhurluq qazanmaqda olan yaradıcı sənaye anlayışı Azərbaycana da sirayət etməkdədir. Artıq ölkəmizdə də yaradıcılığın, şəhərsalmanın və şəhər dizaynının yeni formalarından biri kimi meydana çıxan yaradıcı sənaye insanların həyatına kreativ yanaşma bəxş etməyi hədəfləyib. UNESCO-nun hesablamalarına və gəlinən nəticələrə görə, bu gün dünyada yaradıcı sənaye anlayışı dünyada 30 milyondan çox insanı özünə cəlb edir.

Yaradıcı sənaye nümunəsi dedikdə biz bura bir sıra örnəkləri aid edə bilərik. Sənaye nümunələri müxtəlif məmulatların xarici görünüşünü yaradan dizaynerlərin yaradıcılığının nəticəsində meydana gəlir və məmulatın zahiri görkəmini müəyyən edən bədii konstruktor sənaye nümunəsi olaraq diqqəti cəlb edir. Biz yaradıcı sənayedən danışarkən bura avtomobillərin, saatların, mebellərin, geyimlərin, zərgərlik məmulatlarının, eləcə də digər vasitələrin xarici görünüşlərini, dizaynlarını aid edə bilərik. Çünki bunlar yaradıcı sənaye nümunələridir.



Onu da bildirək ki, dekabrın 9-da Azərbaycanda "Kreativ Azərbaycan" portalının təqdimatı və "Yaradıcı sənayelər: dayanıqlı inkişaf və məşğulluq üçün yeni imkanlar" mövzusunda nazirlər paneli keçirilib.

Artıq Azərbaycanda da inkişafına start verilən yaradıcı sənaye anlayışının inkişafının qeyri-neft sektoruna faydasının böyük olacağı istisna edilmir.

Sənayenin yaradıcılıq sahəsinin inkişafının cəmiyyətə, insanlara, onların həyatlarına böyük fayda verəcəyi şübhəsizdir. Bir çox ekspert hesab edir ki, Azərbaycanda yaradıcı sənayenin inkişafına təkan verəcək amil ölkədə qeyri-neft sektorunun inkişafına dövlət dəstəyi və bu sahədən gözlənilən uğurlu nəticələrdir. Qeyri-neft sektorunun çeşidli qollarından biri kimi yaradıcı sənayenin milli iqtisadiyyatın daha yüksək səviyyədə oynayacağı rol da danılmazdır. Məlumat üçün bildirək ki, sənaye sahələrinin inkişafı və yaradıcılıq proseslərinin iqtisadi və sosial təsirlərinin artırılması istiqamətində Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın dəstəyilə müxtəlif layihələr həyata keçirilir. Mədəniyyət naziri Əbülfəs Qarayev çıxışlarından birində "...Bütün bu amillər artıq Azərbaycanda da yaradıcı sənayenin formalaşdırılmasına, onun təkmilləşdirilməsinə ehtiyac olduğunu sübut edir" - deyə bildirib.

Azərbaycanda yaradıcı sənaye vahid idarəetmə və təchizat kimi hələ də cəmiyyət tərəfindən tam qəbul olunmadığı faktını təsdiqləyən ekspertlərin qənaətinə görə, bu gec-tez bizim cəmiyyətdə oturuşub inkişaf edəcək.

Onu da bildirək ki, 2021-ci il Birləşmiş Millətlər Təşkilatı tərəfindən "Yaradıcı sənayelər davamlı inkişaf naminə ili" kimi qəbul olunub, həmçinin, 2019-cu ildə Bakı şəhəri UNESCO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edilib. Azərbaycanın paytaxtı dizayn sahəsi üzrə yaradıcı şəhər adını uzun müddət daşıyacaq və öz fəaliyyəti ilə dünya ictimaiyyətinə örnək nümunələr təqdim edəcək. Bakı yaradıcı şəhər kimi özünü təqdim edə biləcək. Artıq Azərbaycanda yaradıcı sənaye sahəsində sistemli işlər həyata keçirilməyə başlayıb, məqsəd də Bakının yaradıcı şəhər kimi öz statusunu yüksək səviyyədə qorumasıdır.

Azərbaycan beynəlxalq aləmə inteqrasiya yolu tutub, eyni zamanda, Bakı və Şəki şəhərləri yaradıcı şəhər elan edilib, bu baxımdan, Azərbaycanda yaradıcı sənaye amilinin inkişafına daha çox dəstək verilir. Gizli deyil ki, Azərbaycan xalqının tarix və mədəniyyəti dünya miqyasında tanıdılır, bu proses uğurla həyata keçirilir.

XXI əsrin tələbləri tamam başqadır və dünyada xalqlar, mədəniyyətlər arasında ciddi zəka, intellekt mübarizəsi gedir. Bir çox ekspert yaşadığımız əsri IV sənaye inqilabı əsri kimi qiymətləndirir. Bu inqilabın ən vacib elementlərindən biri ondan ibarətdir ki, insanların biri-birinə olan münasibəti, daha doğrusu, əməyə olan münasibəti tamamilə dəyişib.

Dünya miqyasında yaradıcı sənayenin artım dinamikası ilə bağlı müxtəlif rəqəmlər mövcuddur. Statistikaya görə, dünya üzrə 7,3 faiz göstəricisi olan yaradıcı sənaye ÜDM-in 6,1 faizini əhatə edir və 4,3 trilyon ABŞ dolları məbləğindədir. Bu rəqəmin 2,5 trilyon dolları tam olaraq gəliri təşkil edir.

Azərbaycanda yaradıcı sənayenin inkişaf etdirilməsi üçün müxtəlif dövlətlərin təcrübəsi öyrənilib. Eyni zamanda, yaradıcı sənaye iştirakçılarının şəbəkələşi yaradılıb. Bildiyimiz kimi, Azərbaycanda "Kreativ Azərbaycan" portalı yaradılıb və portalın yaradılmasında məqsəd həm də Azərbaycanın yaradıcılıq məhsullarının "Kreativ Azərbaycan" brendi altında təşviqinin həyata keçirilməsidir. Ölkəmizdə yaradıcı sənayenin müxtəlif şəbəkələrinin yaradılması sahəsində işlər görülür və bu sahədə özəl və dövlət qurumlarının birgə əməkdaşlığı daha böyük nəticələr verir. Bu gün ölkəmizdə yaradıcı sənaye sahəsində yeni modelə keçidin iqtisadiyyata da müsbət təsirini göstərəcəyi istisna deyil. Azərbaycanda yaradıcılıq assosiasiyalarının sayının artması, aktual incəsənət növləri sahəsində müxtəlif layihələrin həyata keçirilməsi yaradıcı sənayenin inkişafını stimullaşdırır. Qeyd edək ki, UNESCO-nun Baş direktoru İrina Bokovanın qərarı ilə "Yaradıcı şəhərlər şəbəkəsi"nə 44 ölkədən 64 şəhər daxil edilib. Bu şəbəkə innovasiya və yaradıcılığı yeni şəhər strategiyasının davamlı və daha inklüziv inkişafının əsas faktoru kimi göstərir. 2004-cü ildən bəri şəbəkə üzvlərinin yaradıcı potensialı yeddi tematika üzrə müəyyən edilir: incəsənət və sənətkarlıq, xalq sənəti, dizayn, kinematoqrafiya, qastronomiya, ədəbiyyat, media və musiqi. Hazırda şəbəkənin 72 ölkədə 180 şəhəri var. Bu gün Şəki və Bakı şəhərləri müasir kreativ inkişaf proseslərinə, yaradıcı sənaye mühitinə qoşulma imkanı əldə edib və bu da həm şəhərlərimizin inkişafına, həm də əhalinin rifahının artmasına, iqtisadi bacarıqlarının diversifikasiyasına müsbət təsir göstərəcək.

Ölkədə yaradıcı sənayenin qurulmasının turizmə də müsbət təsir göstərəcəyi istisna deyil. Kreativ sənayenin əhatə dairəsinin geniş olduğu sirr deyil, kreativ, yaxud yaradıcı sənaye və iqtisadiyyat terminləri bizim üçün yenilik olsa da, dünyanın inkişaf etmiş ölkələrində son illər ən aktual mövzulardan birinə çevrilib. Bu gün kreativ iqtisadiyyat - yaradıcılıq, mədəniyyət, iqtisadiyyat və texnologiyanın bir-biri ilə əlaqəli şəkildə inkişafını nəzərdə tutan müasir inkişaf konsepsiyasıdır. Ekspertlərə görə, kreativ sənaye isə elə bir intellektual fəaliyyət sahəsidir ki, burada insanlar öz yaradıcılıq bacarıqları və istedadları ilə cəmiyyətin maddi rifahının yüksəlməsinə və yeni iş yerlərinin açılmasına şərait yaradırlar.

***İradə SARIYEVA***

# Broyler toyuqların fəsadları barədə daha bir qorxunc şayiə - uşaqlarda vaxtından qabaq cinsi yetkinlik başlayır...

**Broyler istehsalı toyuqların və toyuq məhsullarının orqanizmə təsiri təəssüf ki, ürəkaçan deyil. Bu barədə ara-sıra informasiyalar verilir. Xarici və yerli mütəxəssislər broyler toyuqlarının insan sağlamlığına zərərli olduğunu dəfələrlə bəyan ediblər. Xüsusilə uşaqların orqanizminə mənfi təsir etdiyi bildirilir.**



***Sara Mansurova:** "3 yaşlı broyler toyuğun ətindən tez-tez yediyi üçün onda cinsi hormonlar tez inkişaf etməyə başlayıb"*

***Vaqif Qarayev:** "Broyler toyuqlarının qısa müddətdə böyükhəcmli olması üçün onlara antibiotiklərlə yanaşı, müxtəlif tərkibli qatqılar vurulur"*

Qeyd olunur ki, həmin toyuqlar uşaqlarda vaxtından tez cinsi yetişkənlik yaradır. Ekspertlər və pediatrlar da təsdiq edirlər ki, broyler toyuqları uşaqlarda vaxtından tez cinsi yetişkənlik yaranmasına səbəb olur.

Pediatr Sara Mansurovanın sözlərinə görə, broyler toyuqları həddən artıq piylənməyə, şəkərli diabetə və orqanizmdə digər ciddi problemlərə yol açır. Bundan başqa, onların yemlərinə qatılan preparatlar uşaqlarda zamanından tez cinsi yetkinlik yaradır: "Yəqin ki, bişirərkən şahidi olmusunuz, bu toyuqların əti çox şişkindir, amma sümükləri çox balaca və kövrəkdir. Bu isə göstərir ki, həmin toyuqlar süni böyüdülür. Son zamanlar isə bu toyuqların verdiyi zərərlərin nəticəsi ilə daha tez-tez qarşılaşırıq. Bir valideyn 3 yaşlı uşağını həkimə gətirmişdi, məlum oldu ki, körpədə artıq cinsi yetkinlik baş verir. Araşdırma aparıldı və məlum oldu ki, uşaq həmin toyuqların ətindən tez-tez yediyi üçün, onda cinsi hormonlar tez inkişaf etməyə başlayıb. Hətta broylerləri çox yeyən uşaqlar o qədər öyrəşirlər ki, həyət toyuğunu yemək istəmirlər. Bundan başqa, uşaqlarda immunitet sistemini də broyler toyuqları aşağı salır. Bu toyuqlar hər kəsə zərərlidir, uşaqlara isə qətiyyən vermək məsləhət deyil"

Pediatr Vaqif Qarayev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, qida təhlükəsizliyi bütün dünyada strateji məsələdir. Xəstəliklərin artması səbəblərindən biri də keyfiyyətsiz qidadır: "Bunun üçün müəyyən işlər görülsə də, hələ də istənilən nəticə əldə olunmayıb. Məlumdur ki, broyler toyuqlarının hamısı eyni formada, eyni çəkidə olur. Həmin toyuqların qısa müddətdə yetişib, iri formada olması üçün onlara antibiotik vurulur. Toyuqların şişkin olmasının səbəbi də antibiotiklərdir. Həmin antibiotiklərin zərəri isə müxtəlifdir. Bu toyuqlarla qidalanan şəxs xəstələnən zaman mikroblara qarşı antibiotik qəbul edir. Lakin yediyi toyuğun tərkibində antibiotik olduğu üçün, dərman kimi qəbul etdiyi antibiotik ona təsir etmir. Beləliklə, insan xəstələnən zaman qəbul etdiyi antibiotik mikrobları öldürmür. Bunun da səbəbi broyler toyuqlarına vurulan antibiotiklərdir.

**Bəllidir ki, broyler toyuqlarının qısa müddətdə böyükhəcmli olması üçün onlara antibiotiklərlə yanaşı, müxtəlif tərkibli qatqılar vurulur. Broyler toyuqlarının necə yetişdirilməsi, tərkibində hormonal preparatlar və antibiotiklərin olması və bütün bunların insan orqanizminə, xüsusilə uşaqlara zərəri barədə dəfələrlə ictimaiyyətə xəbərdarlıq edilib. Broyler toyuğu və ayrıca satılan toyuq qaraciyəri də olduqca təhlükəlidir".**

***Günel CƏLİLOVA***

# Azərbaycan əhalisi niyə idmanla məşğuliyyətə bu qədər laqeyddir - cəmi 20 faiz, 45-65 yaşlılarda vəziyyət daha acınacaqlıdır...

**"Sağlam bədəndə sağlam ruh" olar. Yəqin ki, bu deviz hamıya məlumdur. İdman sahəsində çalışan ekspertlər, həkimlər də bildirirlər ki, hər gün yüksək əhval-ruhiyyədə, enerjili və sağlam həyat yaşamaq istəyənlər, ilk növbədə, idmanla məşğul olmalıdırlar. Mütəxəssislər hesab edirlər ki, sağlam həyat ilk növbədə idmanın nəticəsidir.**



***Seymur Həsənov:** "İdman klubları, məşq salonları hər kəsə açıq olarsa, idmanla məşğul olanların sayı artar"*

*"Bəylərlə müqayisədə bu gün idmana qadınlar daha çox maraq göstərir, onların da məqsədi artıq çəki atmaqdır"*

İdmanın müxtəlif növləri var. Əgər əvvəllər idman deyəndə təsəvvürümüzdə ilk olaraq böyük və möhkəm əzələlər, şişkin bədən, ağır məşq, idman alətləri canlanırdısa, indi vəziyyət dəyişib. Artıq kişilərdən fərqli olaraq, gənc xanımlarımız da idmana böyük həvəs göstərir, müntəzəm idmanla məşğul olurlar.

Açıqlanan statistik rəqəmlərə əsasən, Azərbaycanda əhalinin yalnız 20,7 faizi idmanla məşğul olur. Belə ki, 2018-ci ildə aparılmış ev təsərrüfatları tədqiqatının məlumatlarına əsasən, ölkədə 15-19 yaşlı əhalinin 41,4 faizi, 20-44 yaşlı əhalinin 27,6 faizi, 45-64 yaşlı əhalinin 11,9 faizi idman edir: "İdmanla məşğul olan kişilərin sayı qadınlara nisbətən daha çoxdur. Azərbaycanın kişi əhalisinin 30,8 faizi idmanla məşğul olur. Ölkədə 15-19 yaşlı kişilərin 52,7 faizi , 20-44 yaşlı kişilərin 40,6 faizi, 45-64 yaşlı kişilərin 17,5 faizi, yaşı 65-dən çox olan kişilərin 8,9 faizi idmanla məşğuldur. Qadınlara gəldikdə isə, onların yalnız 11,4 faizi idmanla məşğul olur.

Azərbaycandakı 15-19 yaşlı qadınların 29,5 faizi , 20-44 yaşlı qadınların 14,3 faizi, 45-64 yaşlı qadınların 7,2 faizi, yaşı 65-dən çox olan qadınların 2,6 faizi idman edir.

Maraqlıdır, son zamanlar idmanla məşğul olanların sayı niyə azalıb?

Məşqçi Seymur Həsənov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, sağlam həyat tərzinin əsas şərtlərindən biri idmanla məşğul olmaqdır. Hər gün yüksək əhval-ruhiyyədə olmaq, enerjili və sağlam həyat yaşamaq istəyənlər idmanla müntəzəm məşğul olmalıdırlar. İdmanla tək peşəkar idmanla məşğul olanlar deyil, eyni zamanda, həvəskarlar, sağlıqlı həyat yaşayan insanlar da idmanın hansısa növü ilə məşğul olur: "Uşaq, yeniyetmə və gənclərin fiziki və mənəvi sağlamlığının təmin olunması müstəqillik dövründə ən ümdə ictimai əhəmiyyət kəsb edən məsələ kimi həmişə diqqət mərkəzində saxlanıb və qəbul edilən müvafiq qərarlarda öz əksini tapıb. Yetişməkdə olan nəslin sağlamlığını təmin etmək məqsədilə bir tərəfdən təlim-tərbiyə müəssisələrində bədən tərbiyəsi və idmanın inkişafına dövlət qayğısı göstərilir, tədris planları yenidən nəzərdən keçirilir, digər tərəfdən isə idman-sağlamlıq komplekslərinin şəbəkəsi genişləndirilir. Dövlətimiz tərəfindən görülən bu tədbirlərin hər birinin əsasında uşaqların fiziki sağlamlığının təmin edilməsi dayanır. İdmanla məşğul olanların sayının artırılması üçün, ilk növbədə, uşaqların, məktəblilərin bu sahəyə diqqətini yönəltmək lazımdır. İdman klubları, məşq salonları hər kəsə açıq olarsa, idmanla məşğul olanların sayı artar. Uşaqlar üçün təbiət qoynunda, dəniz sahilində kifayət qədər uşaq-idman düşərgələri təşkil olunmalıdır. Burada dincələn uşaqlar üçün müxtəlif marşrutlar üzrə turist yürüşləri keçirilməlidir. Düşərgələrdə uşaqların çox sevdiyi, onlar üçün xüsusilə vacib olan müxtəlif istiqamətli bədən tərbiyəsi hərəkətləri, sağlam və kütləvi idman işləri ilə müntəzəm məşğul olmaları təmin edilməlidir".

Həmsöhbətimizin sözlərinə görə, insanlar idmanın əhəmiyyətini tam dərk etmirlər. İdman insana hava, su kimi lazımdır: "İdman sağlamlıqdır. Təsəvvür edin, ailədə hər iki valideyn idmanla məşğul olursa, o ailədə övlad sağlam həyat tərzi, bədənin tərbiyəsi, gözəl düşüncə, dünyaya gözəl baxış götürə bilər. İdmanla məşğul olanda sən bədənini, qamətini düzgün saxlayır və sağlam həyat tərzi sürürsən. İdman bədənin tərbiyəsidir. İnsanın tərbiyəsi birinci onun bədənindən, insan fiziologiyasından başlayır. İstər xanımlar, istər bəylər gələcəyə dolğun baxmaq, sağlam düşünmək üçün idmanla məşğul olmalıdırlar. İdman ancaq güclü olmaq demək deyil".

Məşqçi onu da vurğuladı ki, peşəkar idmançılardan əlavə, bu gün idmana maraq göstərənlər arasında qadınlar üstünlük təşkil edir: "İllər əvvəl idman etmək üçün çox az xanım müraciət edirdi, amma indi vəziyyət dəyişib. Əvvəllər ölkədə bu qədər idman kompleksi yox idi. 5 il bundan öncə bizə müraciət edənlərin 30 faizini xanımlar təşkil edirdi.

Çünki bəylərimizin əksəriyyəti düşünürdü ki, xanım idman etməz, idman ancaq kişi işidir. İndi belə deyil. Xanım da ailə başçısıdır, dünyaya uşaq gətirir. O, sağlam olmalıdır ki, sağlam uşaq tərbiyə edə bilsin. 2010-cu ildə bir ay ərzində 100 xanıma məşqçilik edirdimsə, indi ay ərzində 1000-1500 xanım məşqlər üçün müraciət edir. Xanımların 70 faizi çəki atmaq istəyənlərdir".

**S.Həsənov sonda onu da vurğuladı ki, idman etmək hər yaşda faydalıdır. Buna görə də idmana bir əyləncə kimi baxmaq lazımdır. Peşəkar idmançılardan fərqli olaraq, idmandan həzz almaq lazımdır, ondan yalnız rəqabət vasitəsi kimi istifadə edilməməlidir.**

***Günel CƏLİLOVA***

№ 221 (4119) ■ Qiymətі: 40 qəpik

# BAKI XƏBƏR

12 DEKABR 2019-cu il

www.baki-xeber.com

# Yer üçün təhlükəli asteroidin sirli fəaliyyətinin səbəbi bilindi



**ABŞ-da Arizona Universitetinin alimləri Yer üçün potensial təhlükəli "Bennu" asteroidinin sirli fəaliyyətinin səbəbini tapıblar.**

"Milli.Az" xəbər verir ki, bu barədə "Phys.org"da dərc olunan press-relizdə bildirilir. "OSIRIS-Rex" layihəsinin mütəxəssisləri asteroidin cənub yarımkürəsində və ekvatorunda müxtəlif yerlərdə 3 nəhəng hissəciklərin tullantısını müşahidə ediblər. Püskürmədən sonra hissəciklər ya səma cisminin ətrafında dövr edirdilər və yenidən səthə düşürdülər, ya da kosmosa uçurdular. Onların süräti saniyədə üç metrə, ölçüsü isə 10 santimetrə çatır. Bununla bağlı bir neçə ehtimal irəli sürülüb: meteoritlərin zərbələri, termik dağılma və su parının çıxması. Alimlər hesab edir ki, termik dağılma asteroidin fırlanması zamanı səthin temperaturunun qəfil dəyişməsi ilə əlaqəli ola bilər. Bu proses, həmçinin səma cismini asanlıqla tərk edən hissəciklərin parçalanmasına da şərait yaradır. "OSIRIS-Rex" - "Bennu" asteroidindən qrunt nümunələrini çatdırmaqla vəzifələndirilmiş planetlərarası stansiyadır. Materialların 2020-ci ilin yayında toplanılması, nümunələrin isə 2023-cü ilin sentyabrında Yerə çatdırılması gözlənilir.

## Buz yemək istəyi - Görün, hansı xəstəlikdən xəbər verir



**Daş,torpaq,buz və .s yemək istəyinə anemiya səbəb ola bilər.**

"Medicina.az" bildirir ki, Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına görə, hər il dünya əhalisinin təxminən 30 faizinə təsir edən anemiya, saç tökülməsi, çarpıntılar və zəiflik kimi bir çox xəstəliklərə səbəb olur. Düzgün bəslənməməyin və müalicəyə laqeyd yanaşmağın sonrakı illərdə ciddi xəstəliklərə zəmin yarada biləcəyini söyləyən Anadolu Tibb Mərkəzinin Daxili Xəstəliklər mütəxəssisi Fatih Bünül, "Uşaqlarda böyümə və inkişaf geriliyi, böyüklər və yaşlılarda zəiflik ,başgicəllənmə , nəfəs darlığının səbəbi ola bilər. Bəzi xüsusi hallarda daş, torpaq, qəhvə, buz yemək istəyi anemiya əlaməti də ola bilər", - deyə, bildirib. Onun sözlərinə görə, insan bədəni anemiyaya uyğunlaşa bilir və bəlli bir nöqtəyə qədər heç bir əlaməti bilinmir. Lakin bəzən qan azlığı olan şəxslərdə torpaq, daş,buz və s. kimi şeylər yemək istəyi yaranır. Anemiya olan şəxslər bunun tək bir səbəblə ortaya çıxa biləcəyini hesab edir. Lakin qan azlığının birdən çox səbəbi də ola bilər. Anemiya, dəmir azlığı, xroniki böyrək xəstəliyi,sümük iliyi,qaraciyər xəstəlikləri, B12 əskikliyi və s. kimi problemləri üzə çıxarır.

## "Azercell"dən rəqəmsal Yeni il kampaniyası!

*Kampaniyaya qoşulan abunəçilər şirkətin rəqəmsal həllərindən internet sərf etmədən yararlanacaq*

**Telekommunikasiya sahəsində dünya tendensiyaları ilə hər zaman ayaqlaşaraq istifadəçilərinə rəng-arəng mobil həllər təqdim edən "Azercell Telekom" qarşıdan gələn 2020-ci il münasibətilə "Yeni il kampaniyası"na start verir. Belə ki, 9.12.2019 - 9.01.2020 tarixləri ərzində davam edəcək kampaniya çərçivəsində iVi, Bookmate, Zvuk xidmətlərdən istifadə edən abunəçilər üçün internet xərcləmələri ödənişsiz olacaq.**




Kampaniyadan yararlanmaq üçün abunəçinin xətti 2 tərəfli açıq və balansda minimum 1 AZN vəsait olmalı, ən əsası isə, internet xətti aktiv olmalıdır. Abunəçilər kampaniyaya daxil olan xidmətlərin müvafiq şifrələrini yığaraq "Azercell"in təqdim etdiyi bu fürsətdən yararlana bilərlər. Qeyd edək ki, iVi Mobil Cinema xidmətinə aylıq qoşulma üçün *302#, Bookmate xidmətinə aylıq qoşulma üçün *533# və Zvuk xidmətinə aylıq qoşulma *707# şifrəsini yığmaq lazımdır.

Xatırladaq ki, "Azercell Plus" xidmətləri çərçivəsində təqdim edilən iVi, Bookmate və Zvukmobil tətbiqləri minlərlə film, kitab və musiqi parçasından limitsiz şəkildə yararlanmaq imkanı yaradır. "Azercell" abunəçiləri üçün xüsusi güzəştlə təqdim olunan bu rəqəmsal xidmətlərdən bir ay ərzində internet xərcləri ödəmədən yararlanma imkanı şirkətin öz müştərilərinə bayram ərəfəsində təqdim edəcəyi hədiyyələrdən biridir.

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

## Elan

Şəki rayonu, Çayqaraqoyunlu kənd sakini Çələbiyev Şakir Şükür oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 175 saylı torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Şəki kənd sakini Dərişov Nüsrət Bayraməli oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 268 saylı torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Şəki şəhər sakini Abdulhəşimov Samir Nəriman oğlunun adına verilmiş hərbi bilet itdiyi üçün etibarsız sayılır.





**Qoç** - İnad, məqsədyönlülük və güclü iradə sayəsində ən mürəkkəb məsələlərin öhdəsindən gələ biləcəksiniz. İşgüzar danışıqlar, maliyyə məsələlərinin müzakirəsi və həlli üçün münasib gündür.



**Buğa** - Uzun müddət sizi irəliləməyə qoymayan emosional problemləri həll etməyin zamanı gəldi. Bu asan olmayacaq, ancaq səylərinizin nəticəsindən məmnun qalacaqsınız.



**Əkizlər** - İşgüzar əməkdaşlığa başlamaq üçün yaxşı gündür. İnsanları sizin üçün faydalı olan əməllərə asanlıqla yönəldirsiniz. Uzunmüddətli əməkdaşlıq barədə müqavilələr imzalaya bilərsiniz.



**Xərçəng** - Düşünülməmiş, qətiyyətli hərəkətlər günüdür: bunların əsl səbəbi heç özünüzə də bəlli deyil. İş bundadır ki, intuisiyanız hakimiyyəti ələ alıb, sağlam düşüncə isə onun ardınca çatdırmır.



**Şir** - Ünsiyyət üçün xoş gündür. Başqalarının istəklərinə qarşı diqqətlisiniz, onların arzularını və ehtiyaclarını nəzərə alırsınız. Nüfuzlu bir şəxsdə özünüz haqda xoş təəssürat yarada biləcəksiniz.



**Qız** - Vergi, sığorta, kreditlə məşğul olan idarələrin işçilərinin bəxti bu gün yaman gətirəcək. Mürəkkəb hesablamalar aparmaq, biznes-plan hazırlamaq olar. Yaranan imkandan istifadə edərək sizin üçün dəyərli olan adamlarla münasibətlərinizi düzəlmək. üçün ortaq planları müzakirə edə bilərsiniz. İri alış-veriş etmək məsləhət deyil.



**Tərəzi** - Risk etməyə, taleyinizi sınağa çəkməyə meyllisiniz. Xoşbəxtlikdən, bunun nəticələri pis olmayacaq, gözlədiyinizdən daha çox bəxtiniz gətirir. Maliyyə işlərində uğurlar mümkündür, sərfəli sövdələr bağlaya bilərsiniz.



**Əqrəb** - Strateji məsələlərin həlli və uzunmüddətli planlaşdırma üçün münasib gündür. İntellektual potensialınız çox yüksəkdir, istənilən mürəkkəb situasiyadan çıxış yolu tapmağa qadirsiniz.



**Oxatan** - Gün sizə yorucu görünür, ancaq səyləriniz hədər getməyəcək, əldə etdiyiniz nəticələr sevindirəcək. Ətrafınızdakılarla asan dil tapır, onların hərəkətlərinin əsl məramını və gizli fikirlərini vaxtında anlayırsınız.



**Oğlaq** - Hissiyyatlı adamların həyatı sürətlə dəyişir, əvvəlki şübhələr və məyusluqlardan əsər-əlamət qalmır. Zəhmət çəkin - bəhrəsini görün! İmkanlar inanılmazdır, sadəcə, öz gücünüzə inanmağınız yetər.



**Dolça** - Çox enerjilisiniz, bir yerdə dayanmaq bilmirsiniz. Hansısa yeni bir işə başlamazdan əvvəl onu yaxşıca götür-qoy edin. Emosiyaların təsiri altında hərəkət edir, bununla vurnuxma, gərəksiz qayğılar yaradırsınız.



**Balıqlar** - Mürəkkəb məsələlərin həlli, birmənalı olmayan şəraitdən çıxış yolunun tapılması üçün münasib gündür. Bu gün ağlınıza gələn ideyalar həm təzəliyi, həm də gecikmədən reallaşdırıla bilmələri ilə diqqət çəkəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Britaniyanın ən böyük qızıl külçəsi tapıldı



**Böyük Britaniyanın ən böyük külçəsi tapılıb. "Axar.az" bildirir ki, 121,3 qram ağırlığında olan külçə kəşfiyyatçılar tərəfindən Şotlandiyadakı çaylardan birinin dərinliklərində tapılıb.**

Qızılın mənşəyi ilə bağlı kitab yazan Li Palmer külçənin haradan gəldiyini və hansı dövrə aid olduğunu öyrənmək üçün onun üzərindəki maddələri araşdırmalı olduqlarını bildirib. Külçə London Təbiət Tarixi Muzeyində və ya Şotlandiya Milli Muzeyində sərgilənəcək. Qeyd edək ki, Böyük Britaniyada 85,7 qram ağırlığında olan ən böyük külçə 2016-cı ildə tapılmışdı.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.